ATİB
AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

# EcoVision

Rüblük iş və iqtisadiyyat jurnalı
Sentyabr 2015 | say 24




ƏSƏS MÖVZU:

# Biznes təhsili

**Fərid Əhmədov:**
“Hədəf seqmentimiz öyrənmək və tətbiq etməklə inkişaf etməyi hədəfləyən tələbələrdir”

**Ədalət Muradov:**
“Fəaliyyətimizi əmək bazarının tələblərinə uyğun qurmağa çalışırıq”

**Azər Hətəmov:**
“Tələbələr daha çox menecment və iqtisadiyyat ixtisaslarına meyil edirlər”

**Referanslarımızdan bazıları:**

1-2 Park Boulevard / INNOVA Construction / Aluminyum fasad işleri tamamlandı.
3 Park INN Otel / ISR Holding / Aluminyum fasad işleri tamamlandı.
4 H. ELIYEV adına Talessemiya Merkezi / H. Eliyev fondu / Aluminyum fasad işleri tamamlandı.
5-6 Nerimanov Residence / TEPE İnşaat / INNOVA Construction / Aluminyum fasad işleri tamamlandı.
7 Nizami RESIDENCE / TML Construction / PAŞA Holding / Aluminyum fasad işleri tamamlandı.
8 Marriot Hotel / STRABAG Construction / PAŞA Holding / Aluminyum fasad işleri tamamlandı.
9 Honda Showroom / Tum inşaat ve Aluminyum fasad işleri tamamlandı.
10 Radisson Hotel Gurcistan / MEDEA Group / Aluminyum fasad işleri tamamlandı.

**İSTANBUL ÇARŞI**
**IMPORT & EXPORT LTD.ŞTİ.**
SINCE 1994
www. istanbulcarsi.com

FENİŞ ALÜMİNYUM | REYNAERS | KÖMMERLING® | AKAPEN | ALPOLIC®/fr | Dierre YOUR HOME, YOUR LIFE | Henkel | dyo | dyo inks | G-U | BKS | LOCTITE®

Farklılıklar yaratarak kalıcı üstünlüklerle ileriye...






















**AZERBAYCAN**
ISTANBUL ÇARŞI
İMPORT & EXPORT LTD ŞTİ
PAZARLAMA:
Bayıl, Neftçiler pr.14 Baku / Azerbaycan
Tel: (+99 412) 498 02 42 - 498 20 86
Fax: (+99 412) 498 20 73
@ : pazarlama@istanbulcarsi.com

ISTANBUL ÇARŞI
İMPORT & EXPORT LTD ŞTİ
FABRİKA:
Bayıl, Emek k. 9 Baku /Azerbaycan
Tel: (+99 412) 498 22 62 - 491 78 63
Fax: (+99 412) 491 78 63
@ : infofabrika@istanbulcarsi.com

ISTANBUL ÇARŞI
İMPORT & EXPORT LTD ŞTİ
28 MAY SHOWROOM:
28 May k. 20 Baku /Azerbaycan
Tel: (+99 412) 498 98 58 - 498 79 29
Fax: (+99 412) 498 79 29
@ : 28may@istanbulcarsi.com

**TÜRKİYE**
Fatsa Dış Tic. İnş. ve Tur. LTD
Tersane cad. Musluk sk. No:1/4
Karaköy / İstanbul
Tel: (+90 0212) 252 60 30/31
Fax:(+90 0212) 252 82 98
@ : fatsa@fatsadis.com
www.fatsadis.com

**GÜRCİSTAN**
GEO CONSTRUCTION LTD
4.Giorgi Tsabadze str.
Tiflis / Gürcistan
Tel: +995 32 35 65 02
Fax: +995 32 35 65 03
@ : info@geoconstruction.ge
www.geoconstruction.ge

**CEZAYİR**
ISTANBUL CONSTRUCTION
SARL İSTANBUL PVC & ALUMINIUM
No:12 Cooperative Amel 3,
Dely Brahim - Algerie
Tel : +213 21 374823
@ : info@istanbulcons.com
www.istanbulcons.com



Artıq Azərbaycanın da
Ziraat Bankı var
Ziraat Bank Azərbaycan açıldı.
Nəhayət ki, Azərbaycanda da bir bankdan daha artığıq.
Ziraat Bank
Azərbaycan



# Dəyərli oxucularımız! Hörmətli ATİB üzvləri!

**Azərbaycanla** Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri hər ötən gün daha da möhkəmlənir. İki qardaş ölkə arasındakı iqtisadi, sosial, mədəni və digər sahələrdə əlaqələrin genişlənməsi və daha da möhkəmlənməsi istiqamətində Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) də öz töhfəsini verməklə fəxr hissi duyur.

ATİB ölkələrimiz arasındakı istər ticari əlaqələrin, istərsə də investisiya əlaqələrinin möhkəmləndirilməsi istiqamətində öz partnyorları ilə birgə fəaliyyətini ötən dövr ərzində davam etdirmişdir. Bundan sonra da Azərbaycana sərmayə yatırmaq istəyən türkiyəli iş adamlarına və eyni zamanda Türkiyədə biznes qurmaq istəyən azərbaycanlı iş adamlarına ATİB olaraq dəstək olmağa hazırıq.

Ötən aylar ərzində ATİB davamlı olaraq təşkilati potensialını gücləndirərək üzvlərinə göstərdiyi xidmətlərin miqyasını və keyfiyyətini yaxşılaşdırmış və bu istiqamətdə fəaliyyətini daha da genişləndirməyi hədəfləmişdir.

*Hörmətli oxucular, əminəm ki, ATİB üzvlərinin və əməkdaşlıq etdiyimiz təşkilatların köməkliyi və dəstəyi ilə gələcəkdə daha böyük uğurlara imza atacaqdır. Ötən dövrlərdə olduğu kimi, qarşıdakı dövrlərdə də davamlı olaraq inkişaf edən fəaliyyətimizlə iki qardaş ölkə və xalq arasında hərtərəfli əlaqələrin daha da güclənməsinə birgə xidmət edəcəyik.*

Hörmətlə,

*Cemal Yangın*
*ATİB İdarə heyətinin sədri*



# Əziz oxucular! Xanımlar və cənablar!

**Sizə yenilənmiş "Ecovision" jurnalını təqdim etməyi özümüzə böyük şərəf hesab edirik.**

Ölkəmizdə biznes təhsilinin vəziyyətinə həsr olunmuş növbəti sayımızda biznes təhsili ilə bağlı dəyərli məlumatları özündə əks etdirən müsahibələrlə və müəllif yazısı ilə tanış olmaq imkanı əldə edəcəksiniz.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov, Azərbaycan Universitetinin rektoru, hüquq üzrə fəlsəfə doktoru Fərid Əhmədov, Türkiyənin Anadolu Dövlət Universitetinin koordinatoru cənab Azər Hətəmov ölkəmizdə biznes təhsili ilə bağlı mövcud vəziyyəti şərh ediblər. İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin prezidenti Ruslan Atakişiyev isə müəllif yazısında Azərbaycanda biznes təhsilinin inkişaf perspektivləri ilə bağlı araşdırmasını təqdim edib.

Eyni zamanda bu sayımızda "KoçSistem Azərbaycan" MMC-nin direktoru cənab Ali Kutvanın, Şimali Kipr Türk Cümhuriyyətinin Azərbaycandakı nümayəndəsi cənab Sadəddin Topukçunun, "Sahibkar" rubrikasında "Biləv" şirkətinin təsisçisi və direktoru Fariz Əmirovun müsahibəsini oxuya biləcəksiniz.

Jurnalımızda ənənəvi məlumatlar: ATİB-in son üç aylıq fəaliyyəti, yeni üzvlərimiz haqqında qısa məlumat və digər məlumatlar əks etdirilmişdir.

**Əziz dostlar!**

*Ümid edirik ki, jurnalımız diqqətinizi cəlb edəcək. Jurnal haqqında təklif və rəylərinizi ATİB Katibliyi ilə bölüşsəniz, Sizə çox minnətdar olarıq. Təklif və iradlarınızı pr@atib.az elektron ünvanında böyük məmnuniyyətlə gözləyirik.*

Hörmətlə,

*Pərvanə HACIYEVA,*
*Baş redaktor*

AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

**EcoVision (24/2015)**

**Təsisçi:**
Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB)

**Əməkdaşlar:**
Gülnar Şirinova
Eyvaz Qocayev

**Dizayner:**
Maksim Kostenko

**Korrektor:**
Kəmalə Cəfərova

- AtaBank ASC
- Adopen MMC
- "Anadolu Vizyonu Kurs Destek Ve Turizm Sanayi Ticaret Anonim Şirketi"- nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi
- Aramex
- AXA MBASK
- "Farmetik" MMC
- "İlk Inşaat" MMC
- İstanbul Çarşı Import Export Ltd
- Istanbul Reklam Market MMC
- Iteca Caspian LLC
- Kemal Aksezgin Pulluk Sanaye
- "Qafqaz Tikinti Materialları" A.Ş
- Network Global Logistics MMC
- "PAŞA Həyat Sığorta" ASC
- "RR" şirkətlər qrupu
- Schneider Elektrik Sanayi ve Ticaret Anonim Şirketi
- Türk Hava Yolları
- "Yapı Kredi Bank Azərbaycan"
- "Ziraat Bank Azərbaycan" ASC

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir:
3026 "EcoVision" jurnalına istinad zəruridir.

Jurnaldakı mətn və ya illüstrativ materialların təkrar dərci yalnız redaksiyanın yazılı razılığından sonra mümkündür.

Jurnal dövlət və özəl strukturlar, yerli və xarici şirkətlər, beynəlxalq təşkilatlar və diplomatik nümayəndəliklərə pulsuz yayılır. Reklam materiallarının məzmununa görə redaksiya məsuliyyət daşımır.

Müəlliflərin nümayiş etdirdiyi mövqe ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan**
Bakı şəhəri, İstiqlaliyyət 21, 5-ci mərtəbə, AZ1001
**Tel** : (994 12) 449 88 82/83
**Faks** : (994 12) 449 88 84
**e-mail** : pr@atib.az

İdarə heyəti üzvləri 4

ATİB Katibliyi 6

ATİB haqqında 8



Üzvlərdən xəbərlər 10




ATİB xəbərləri 12









İlin İş Adamı 22

ATİB İdarə heyətinin üzvü "İlin İş Adamı" adına layiq görülüb



## ƏSAS MÖVZU: Biznes təhsili

Ədalət Muradov: 24

"Fəaliyyətimizi əmək bazarının tələblərinə uyğun qurmağa çalışırıq"




Fərid Əhmədov: 28

"Hədəf seqmentimiz öyrənmək və tətbiq etməklə inkişaf etməyi hədəfləyən tələbələrdir"




Azər Hətəmov: 32

"Tələbələr daha çox menecment və iqtisadiyyat ixtisaslarına meyil edirlər"




Ruslan Atakişiyev: 36

Azərbaycanda biznes təhsilinin inkişaf perspektivləri




Fariz Əmirov: 40

Əmək bazarında iş yox, işçi problemi var




Azerbaycanın işadamları Kuzey Kıbrısa yatırımlarını artırmışlar 44

Prof. Dr. Ali Kutvan: 48

"KoçSistem Azerbaycan MMC şirketi Ülke Direktörü Prof. Dr. Ali Kutvan için "EcoVision" dergisinin repörtaj soruları

Süleyman Dəmirəl xatirələrdə 53



Rənglərin insan həyatında rolu 54

Orta təbəqə ilə zəngin insanlar arasındakı 10 fərq 56

Azərbaycanda payız sərgi mövsümü 60

Beynəlxalq Sərgilər 64

Biznes təklifləri 65

Azərbaycanın gəzməli-görməli yerləri: ŞƏKİ 66






Yeni üzvlər 75

Ad Günləri Siyahısı 76

"Bakı 2015" ilk Avropa Oyunlarında Azərbaycanın uğurları 78






Endirim Proqramı 80




950
www.axambask.az

AXA MBASK
sığortaçılığa / yeni baxış

# ATİB İdarə heyətinin
## 2015-2018-ci illərdə tərkibi



**Cemal Yangın**
İdarə heyətinin sədri
İstanbul Çarşı İmport Export Ltd.



**Cem Becel**
İdarə heyəti sədrinin müavin
"Azərbaycan Koka Kola Bottlers Ltd" MMC



**Mürsəl Rüstəmov**
İdarə heyəti sədrinin müavin
"PAŞA Həyat Sığorta" ASC



**Rafiq Qarayev**
İdarə heyətinin üzvü
"RR Group of Companies" MMC



**Aydın Məmmədov**
İdarə heyətinin üzvü
Peqasus MMC (Aramex)



**Kaya Karslı**
İdarə heyətinin üzvü
"İstanbul Reklam Market" MMC



**İsmail Şahin Bürhan**
İdarə heyətinin üzvü
Borusan MAKİNA Servis ve Ticaret A.S.



**Ali Gümüş**
İdarə heyətinin üzvü
Az-Türk Pen MMC



**Fariz Əmirov**
İdarə heyətinin üzvü
Biləv İnşaat



**Rəşad Rəsullu**
İdarə heyətinin üzvü
Ata Holdinq ASC



**Oktay Vayiç**
İdarə heyətinin üzvü
Network Global Logistics MMC

# ILK CONSTRUCTION

*Because we know what to do!*











**www.ilkconstruction.com**

**Tel: (+994 12) 498 11 50/53**

# ATİB Katibliyi



**Pərvanə Hacıyeva**
Baş katib



**Sevinc Dostaliyeva**
Baş assistent



**Gülnar Şirinova**
PR Manager



**Aytən Camalova**
Katibə referent



**Mətanət Şirinova**
Mühasib



**Eyvaz Qocayev**
Mütəxəssis



**Sevda Məmmədli**
Layihə koordinatoru

PAŞA
Həyat



Etibarlı
həyat sığortaçınız!

942

www.pasha-life.az



# ATİB-in VİZYONU:

Azərbaycan Türkiyə İş Adamları Birliyi Azərbaycanı regionun qabaqcıl ölkəsi kimi və dünyanın inkişaf etmiş ölkələri sırasında görür və bunun üçün öncəliklə Azərbaycan və Türkiyə arasında, daha sonra isə Azərbaycan və digər ölkələr arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişaf etdirilməsinin vacibliyinə inanır.

# ATİB-in MİSSİYASI:

ATİB Azərbaycan iqtisadiyyatını canlandıran yeni inkişaf istiqamətində Türkiyə və Azərbaycan iş adamlarını bir yerdə toplayaraq, Azərbaycanın sahib olduğu iqtisadi potensialdan birlikdə istifadə etmək və bir SİNERJİ yaratmaq üçün qurulub.

# ATİB üzvlərinə faydalı xidmətlər:

- Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsi üçün dövlət orqanları və ATİB üzvləri arasında körpü rolu həyata keçirilir;
- ATİB ofisində təqdimat, seminar və treninqlərin keçirilməsi xidmətini həyata keçirir;
- ATİB üzvləri haqqında məlumatların təşkilatın internet səhifəsində yerləşdirilməsi imkanını yaradır;
- Üzvlər üçün müxtəlif dövlət orqanları təmsilçilərinin iştirak etdiyi açıq və qapalı toplantılar keçirir;
- Üzvlər arasında əlaqələrin gücləndirilməsi üçün mütəmadi olaraq səhər yeməkləri və axşam ziyafətləri təşkil edir;
- Üzvlərə ictimaiyyətlə və media ilə əlaqələr üzrə dəstək xidməti göstərir;
- Üzvlər arasında səmimiyyətin tam formalasdırılması üçün istirahət və əyləncə məqsədli tədbirlər təşkil edir;

# ATİB-in üzvlük şərtləri:

- ATİB-in Nizamnaməsinə əsasən üzv olacaq hüquqi və fiziki şəxsin və ya xarici şirkətin təmsilçiliyinin Azərbaycanda fəaliyyət göstərməsi.
- Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti və ATİB-ə üzvlük blankı (üzvlük blankı əlavə edilir).
- Birliyə illik üzvlük haqqı olaraq 1200 manat ödənilməsi. Ödəmə hissə-hissə də həyata keçirilə bilər.

# ATİB-ə üzvlük nə verir:

- Yeni biznes əlaqələrinin formalaşdırılması
- Şirkətinizin daha yaxşı tanıdılması
- Ən son informasiyanın əldə edilməsi
- Hər iki ölkədə biznes etiketi və ənənələri ilə tanışlıq
- Müxtəlif layihələrin həyata keçirilməsində iştirak

VISA | Visa payWave

Məlumat Mərkəzi 136

# saniyələr yetər...

Visa payWave kartları ilə
toxunmadan ödəniş imkanı




AtaBank
Bir addım öndə

AR Mərkəzi Bankı tərəfindən verilmiş 176 saylı lisenziya

AtaBank.com /AtaBank @AtaBank_ASC

# "PAŞA Həyat Sığorta" şirkətinin layihəsi "İlin ən yaxşı layihəsi" seçilib

PAŞA Həyat

"PAŞA Həyat Sığorta" şirkəti tərəfindən tələbələr üçün həyata keçirilən "Sığorta və sığorta mədəniyyəti" layihəsi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 103 layihə arasında "İlin ən yaxşı layihəsi" hesab olunub.

Layihələrin seçimi və qiymətləndirilməsi akademiyanın tələbə gənclər təşkilatı tərəfindən aparılıb.

Qeyd edək ki, "Sığorta və sığorta mədəniyyəti" layihəsinə 2013-cü ilin iyul ayından start verilib. Bugünədək davam edən layihə çərçivəsində 55 təlim təşkil olunub və təlimlərə 1.100 nəfərdən çox iştirakçı qatılıb.

Təlim zamanı tələbələrə sığortaya aid mövcud qanunvericilik bazası, sığortanın mahiyyəti, sığorta mədəniyyətini formalaşdıran amillər, sığorta müqaviləsi, təkrarsığorta, sığorta riskləri, dünya və yerli sığorta bazarının vəziyyəti haqqında ətraflı məlumat verilib.




# ATİB İdarə heyətinin üzvləri əməkdaşlığa başladı

RR Group of Companies

Buta 2015 online karqo

NETWORK GLOBAL LOGISTICS

ATİB İdarə heyətinin üzvü "RR Şirkətlər Qrupu"nun baş direktoru Rafiq Qarayev və "Network Global Logostics" MMC-nin ölkə üzrə meneceri Oktay Vayiç əməkdaşlığa başlayaraq "BUTA 2015" Karqo şirkətini yaradıblar. Şirkət İstanbuldan Bakıya ekspres çatdırılma işini həyata keçirir.

# "Azərbaycan Coca-Cola Bottlers LTD" mükafatlandırıldı

"Azərbaycan Coca-Cola Bottlers LTD" 84 ölkə arasından seçilərək Avrasiya və Afrika regionu daxilində "Ən Yaxşı Şüşələmə Müəssisəsi" əsas mükafatına layiq görülən 10 finalçı siyahısına daxil edilib və bu uğur artıq dördüncü ildir təkrarlanır.

Bu nominasiya "Azərbaycan Coca-Cola Bottlers LTD" şirkətinin uğurlu fəaliyyətinin, o cümlədən əməkdaşların rifahının artırılması, ətraf mühitin mühafizəsi kimi layihələrin tanınmasının sübutudur. Qeyd edək ki, bu, "Azərbaycan Coca-Cola Bottlers LTD" MMC şirkətini 2020-ci ilin hədəflərinə daha da yaxınlaşdıran növbəti mühüm addımdır.




Coca-Cola



# "SANDALYECI" artıq Bakıda

28 may 2015-ci ildə ATİB nümayəndə heyəti ATİB üzvü olan "C - Group" MMC şirkətinin Türkiyənin öndə gedən mebel istehsalçılarından olan "SANDALYECI" A.Ş. - nin Azərbaycanda distributoru olan satış mağazasının açılış mərasimində iştirak edib.

Azərbaycanın tanınmış memar və dizaynerləri, ictimai simalarının qatıldığı açılış mərasimində qonaqlar "SANDALYECI" brendinə aid yüksək keyfiyyətli mebel nümunələri ilə tanış olublar.








# BASF şirkəti Beynəlxalq Kimya Olimpiadasının sponsoru qismində çıxış edib

150 years
BASF
We create chemistry

Azərbaycan Türkiyə İş Adamları Birliyinin üzvü olan BASF şirkəti 20-29 iyul tarixlərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının bazasında keçirilən 47-ci Beynəlxalq Kimya Olimpiadasının sponsoru qismində çıxış edib. BASF şirkətinin beynəlxalq olimpiadada sponsor kimi iştirakı şirkətin 150 illik yubileyi çərçivəsində həyata keçirilib. Bu münasibətlə ATİB BASF şirkətini təbrik edir və fəaliyyətində uğurlar arzulayır.

Heydər Əliyev Mərkəzində keçirilmiş olimpiadanın açılış mərasimində "BASF Caspian Yapı Kimyasalları Sənaye" MMC-nin baş direktoru cənab Ali İhsan Genç olimpiada iştirakçılarına müraciətində qeyd edib: "47-ci Beynəlxalq Kimya Olimpiadasında iştirak edən bugünkü şagirdlər – bizim gələcəkdəki alimlərimiz, mühəndislərimiz və konstruktorlarımız qlobal çağırışların həllində, o cümlədən planetimizin həyat balansının saxlanmasında, Yer kürəsinin təmiz su, qida və enerji ilə təmin olunmasında, həmçinin iqlim dəyişikliklərinin mənfi nəticələrinin azaldılmasında vacib rol oynayırlar".

BASF şirkəti gələcək nəsildə kimyaya marağın artırılmasına böyük diqqət ayırarkən kimya sahəsində yuxarı sinif şagirdləri üçün ən əhəmiyyətli beynəlxalq müsabiqələrin birindən kənarda qala bilməzdi. Özünün 150 illik yubileyinin qeyd olunduğu ildə BASF şirkəti bütün dünyada gələcəyin əsas mövzularına: səmərəli enerji istehlakı, keyfiyyətli qida məhsulları ilə təminat kimi mövzulara həsr olunmuş çoxsaylı tədbirlər keçirir.







# "KoçSistem-Azərbaycan" konfrans keçirib

KoçSistem

15 may 2015-ci ildə ATİB üzvü olan "KoçSistem-Azərbaycan" şirkətinin "Bank sektorunda informasiya texnologiyaları həlləri" mövzusunda konfransı keçirilib. Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə heyətinin sədri Cemal Yangın konfransda iştirak edib.

Ölkənin informasiya texnologiyaları sektorunda qısa zaman kəsiyində sıçrayışlı inkişafa nail olunmasından bəhs edən şirkətin Azərbaycan nümayəndəliyinin direktoru Əli Kutvan "KoçSistem"in Azərbaycan iqtisadiyyatına verdiyi töhfələrdən də danışıb.





# Türk dünyası işlətmə fakültəsinin “Məzun günü” keçirilib

7 may 2015-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) Türk dünyası işlətmə fakültəsində “Məzun günü” keçirilib. “Məzun günü”ndə Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə heyətinin sədri Cemal Yangın, universitetin professor və müəllim heyəti, iş adamları, tələbələr və valideynlər iştirak edib.







# ADİU-da ulu öndərə ithaf edilən “Geoiqtisadiyyat” kitabının təqdimatı keçirilib



Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə heyətinin sədri Cemal Yangın Dövlət İqtisad Universitetində Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) İqtisadiyyatın təhlili və qloballaşma məsələləri şöbəsinin müdiri dr.Vüsal Qasımlının ulu öndər Heydər Əliyevə ithaf etdiyi “Geoiqtisadiyyat” kitabının təqdimat mərasimində iştirak edib.

Azərbaycan Türkiyə İş Adamları Birliyinin rəhbəri Cemal Yangın ulu öndər Heydər Əliyevə ithaf edilən “Geoiqtisadiyyat” kitabının iş adamları üçün böyük töhfə olduğundan söz açıb. Kitabın Türkiyənin Əskişəhər şəhərində də təqdimat mərasiminin keçirildiyini vurğulayan C.Yangın onun Türkiyənin Anadolu Universiteti tərəfindən təkrar çapının planlaşdırıldığını bildirib.

# ATİB-in sədri və üzvləri Bakıda B20 Azərbaycan Regional Məsləhətləşmə Forumunda iştirak ediblər

Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə heyətinin sədri Cemal Yangın və ATİB üzvləri bu il mayın 12-də Bakıda keçirilən B20 Azərbaycan Regional Forumunda iştirak ediblər.

İqtisadiyyat və Sənaye Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) dəstəyi ilə keçirilən forumda həmçinin Türkiyə Baş nazirinin müavini Əli Babacan, aidiyyəti dövlət qurumlarının rəhbərləri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 140-dan çox şirkətin nümayəndələri və təhsil müəssisələrinin rəhbərləri də iştirak edib.





NETWORK®
GLOBAL LOGISTICS

Heavy Lift & Project Cargo




Heavy Load Transport | Chartering | Rail Transport

IRU International Road Transport Union

Phone : +99412 464 43 14 / +99412 464 43 15 Fax: +99412 464 43 16
AGA BUSINESS CENTER 55 Khocali Ave. 4th Floor AZ 1025 BAKU/AZERBAIJAN
baku@networkgloballogistics.com | www.networkgloballogistics.com



# ATİB nümayəndə heyəti "Müasir türk rəsm sənətində təxəyyül, məkan və zaman" adlı sərginin açılış mərasimində iştirak edib



ATİB İdarə heyətinin sədri Cemal Yangın, İdarə heyəti və üzvləri 13 may 2015-ci ildə Heydər Əliyev Mərkəzində keçirilən "Müasir türk rəsm sənətində təxəyyül, məkan və zaman" adlı sərginin açılış mərasimində iştirak ediblər. Bakıda ilk dəfə təqdim olunan bu sərgi Türkiyə Respublikasının Mərkəzi Bankı ilə birgə təşkil olunub.

Sərgidə 28 rəssamın 35 əsəri yer alıb. Sənətsevərlər ekspozisiyada Türkiyənin rəsm sənətinin inkişaf və dəyişmə dinamikasını izləyiblər.







# ATİB nümayəndə heyəti ADİU-da Türkiyə Səfirliyinin təşkilatçılığı ilə G20 sammitinə həsr olunmuş konfransda iştirak edib

14 may 2015-ci ildə ATİB İdarə heyətinin sədri Cemal Yangın, İdarə heyəti və üzvləri Azərbaycan Dövlət İqtisad Universitetində "G20: Türkiyənin sədrliyinin prioritetləri və Azərbaycanın yeni iqtisadi əməkdaşlıq imkanları" mövzusunda elmi-praktik konfransda iştirak edib. Səfir İsmayıl Alper Coşqunun, Türkiyə Mərkəzi Bankının sədr müavini Mehmet Yörükoğlunun, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyinin direktoru Razim Vəliyevin, Azərbaycan Mərkəzi Bankının Pul siyasəti departamentinin direktoru Azər Ələsgərovun və digər qonaqların iştirak etdiyi tədbiri Türkiyənin Azərbaycandakı Səfirliyi təşkil edib.







# ATİB növbəti ziyarətini həyata keçirdi

ATİB İdarə heyəti 23 may 2015-ci ildə ənənəvi üzvlük ziyarətlərindən daha birini gerçəkləşdirdi. İdarə heyətinin üzvləri Kaya Karslı, Ali Gümüş və Baş katib Pərvanə Hacıyeva birliyin üzvü olan "Tekfen İnşaat və Təsisat"ın "Socar Tower" layihəsi ilə yaxından tanış oldular. "Tekfen İnşaat ve Tesisat A." şirkətinin layihə rəhbəri Bülent Güney ziyarətə görə ATİB İdarə heyətinə təşəkkürünü bildirdi.

Görüşun sonunda ATİB üzvünə plaket təqdim olundu və xatirə fotoları çəkildi.



# Bakı Dövlət Universitetində "Çanaqqala: barışa uzanan yol" mövzusunda beynəlxalq konfrans keçirilib

Mayın 22-də Bakı Dövlət Universitetində (BDU) Türkiyənin, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının, Avstraliya İttifaqının Azərbaycandakı səfirlikləri ilə birgə "Çanaqqala: barışa uzanan yol" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda ATİB İdarə heyətinin sədr müavini Cem Becel, Baş katib Pərvanə Hacıyeva, İdarə heyətinin üzvü Ali Gümüş, ATİB üzvlərindən İrfan Hilmi, Azər Hətəmov, Ali Bülent Kutvan iştirak edib.

Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun Çanaqqala savaşında qazanılan qələbənin Türkiyə tarixində çox mühüm bir hadisə olduğunu diqqətə çatdırıb.







ATİB xəbərləri

# ATİB İdarə heyəti Azərbaycan Universitetinin buraxılış mərasimində iştirak edib

Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə heyəti sədrinin müavini Cem Becel və Baş katib Pərvanə Hacıyeva mayın 27-də Azərbaycan Universitetinin 2015-ci il məzunları üçün buraxılış mərasimində iştirak edib.

Mərasimdə ATİB təhsilin keyfiyyətinin artırılması, təcrübə işinin təşkilində biznes qurumlarının səfərbər edilməsində yaxın əməkdaşlığa görə "Azərbaycan Universitetinin Dostu" mükafatına layiq görülüb. Mükafata görə təşəkkürünü bildirən ATİB sədrinin müavini Cem Becel məzunları təbrik edib.







# ATİB nümayəndə heyəti "Xəzər Neft və Qaz" sərgisində iştirak edib

Azərbaycan Türkiyə İş Adamları Birliyinin Baş katibi Pərvanə Hacıyeva və layihə meneceri Sevda Məmmədli "Xəzər Neft və Qaz" sərgisində iştirak etmiş, həmçinin ATİB İdarə heyətinin üzvü "BORUSAN MAKINA SERVIS VE TICARET" A.Ş. və ATİB üzvü olan "Schneider Electric" şirkətini ziyarət etmişlər.






# ATİB İdarə heyəti Şimali Kipr Türk Cümhuriyyətinin Bakı nümayəndəliyinin rəhbəri Sadettin Topukçu ilə görüşüb

ATİB İdarə heyəti bu il iyunun 4-də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTÇ) Bakı nümayəndəliyinin rəhbəri Sadettin Topukçu ilə görüşüb.

Sadettin Topukçu görüşdə tarixi tellərlə bir-birinə bağlı olan Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında əlaqələrin son illərdə sürətlə inkişaf etdiyini, münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu qeyd edib.











RR
Group of Companies



Baş Plan

## LAYİHƏLƏRİMİZ:

**Ağdam rayonu**
Qarabağ Sənaye Məhəlləsi

**Nərimanov rayonu**
İnşaat materiallarının satışı mərkəzi

**Nərimanov rayonu**
LUXE HOME yaşayış kompleksi

**Qaradağ rayonu**
Aqrovest ərzaq və meyvə topdan satış mərkəzi

**Sumqayıt şəhəri**
7 bloklu 14 mərtəbəli yaşayış kompleksi

**Zaqatala şəhəri**
3 girişli 8 mərtəbəli yaşayış binası












## ƏLAQƏLƏRİMİZ:

**"RR Group of Companies" MMC**
**Ünvan:** Xətai ray., Babək pr.,11/31, 13-cü mərtəbə
**Telefon:** (+994 12) 488 05 59\60
**www.rrgroup.az**

# ATİB nümayəndə heyəti "Bakı simfoniyası" kitabının təqdimat mərasimində iştirak edib

Xarici İşlər, Mədəniyyət və Turizm nazirliklərinin, "PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyətinin (ASC) və "Silk Way" şirkətinin dəstəyi ilə iyunun 5-də "IRS Publishing House" tərəfindən hazırlanmış "Bakı simfoniyası" kitabının "Four Seasons" hotelində təqdimat mərasimi keçirilib.

"Bakı simfoniyası" kitabının bölmələri də musiqi terminləri ilə adlandırılıb: "Uvertüra", "Alleqro", "Adajio", "Koda". I Avropa Oyunları nəşrin "Adajio" hissəsində yer alıb. Burada həmçinin Azərbaycanda idmanın inkişafı, bu sahədə qazanılan uğurlar da əksini tapıb.

Mərasimdə Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə heyətinin sədri Cemal Yangın və Baş katib Pərvanə Hacıyeva da iştrak edib.
















# ATİB-lə Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresi Şurası arasında əməkdaşlıq müqaviləsi imzalandı

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresinin iş planına uyğun olaraq Konqresin Rəyasət Heyətinin növbəti iclası iyulun 3-də Bakı şəhərində keçirilib.

İclasda Azərbaycan Türkiyə İş Adamları Birliyini Baş katib Pərvanə Hacıyeva təmsil edib. O, ATİB-in fəaliyyəti və hədəfləri haqqında məlumat verərək təqdimat keçirib.

Tədbirdə ATİB-lə Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresi Şurası arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb.





# ATİB Baş katibi üzvləri ziyarət edib















# ATİB İdarə heyəti Şimali Kiprdə səfərdə olub

Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə heyətinin üzvləri 28-30 iyul tarixlərində Şimali Kipr Türk Cümhuriyyətinə səfər ediblər. Səfər çərçivəsində heyəti Şimali Kipr Türk Cümhuriyyətinin Azərbaycandakı təmsilçisi cənab Sadettin Topukçu müşayiət edib.

Səfər çərçivəsində heyət ilk olaraq Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Mustafa Akıncını ziyarət edib.

ATİB İdarə heyətinə ziyarət üçün təşəkkür edən cənab Mustafa Akıncı Azərbaycanın kiprli türklər üçün çox vacib bir ölkə olduğunu vurğuladı. O, iş adamlarının Kiprə sərmayə qoymaq fikrini alqışladı.

Daha sonra ATİB İdarə heyəti Şimali Kipr Milli Məclisinin Sədri Sibel Siberlə görüşdü. ATİB İdarə heyətinin sədri Cemal Yangın səfərin məqsədinin Türkiyə və Azərbaycan arasında ticarət əlaqələrini inkişaf etdirməkdən ibarət olduğunu vurğuladı.

Sibel Siber xanım qarşılıqlı əlaqələrin mədəni səviyyədə inkişaf etdiyini bildirərək, bu əlaqələrin daha da yüksək mərtəbədə şaxələnəcəyinə əminliyini bildirdi.

Görüşün sonunda xatirə plaketi təqdim olundu. Səfər çərçivəsində Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ömer Kalyoncu ATİB nümayəndə heyətini qəbul etdi.

ATİB sədri Cemal Yangın Baş nazir cənab Ömer Kalyoncuya yeni vəzifəsində uğurlar arzulayaraq ATİB-in fəaliyyəti haqqında geniş məlumat verdi. Növbəti görüş Şimali Kipr Türk Cümhuriyyətinin Xarici İşlər naziri xanım Emine Çolak ilə keçirildi. Cemal Yangın qəbula görə təşəkkür edərək ATİB-in gələcək fəaliyyətlərindən bəhs etdi.

Görüşün sonunda xatirə üçün hədiyyələr təqdim olundu. Səfər çərçivəsində ATİB və Kipr Türk Sənaye Odası və Kipr Türk Ticarət Odası ilə əməkdaşlıq memorandumu imzalandı.

ATİB nümayəndə heyəti səfərdə olarkən kiprli iş adamları ilə də görüşlər keçirdi.













# ATİB müqəddəs Ramazan ayında üzvləri arasında iftar proqramı təşkil edib

24 iyun 2015-ci ildə ATİB müqəddəs Ramazan ayında üzvləri arasında iftar proqramı təşkil edib. İftar yeməyində ATİB üzvləri ilə yanaşı Türkiyə Səfirliyinin mədəniyyət və tanıtma müşaviri Seyit Ahmet Arslan və ekonomi müşaviri Esin Yücekayalı, "İrs" beynəlxalq jurnalının baş redaktoru Musa Mərcanlı və digər qonaqlar da iştirak edib.

Qonaqları salamlayan ATİB sədri Cemal Yangın ATİB-in həm Türkiyə, həm də Azərbaycan üçün faydasından danışıb. O bildirib ki, iki ölkə arasında iqtisadi bağları daha da möhkəmləndirən ATİB Azərbaycan iqtisadiyyatına sərmayə yatırılmasında əlindən gələni əsirgəməyəcək.

Tədbirin sonunda səlahiyyət müddətləri başa çatan Türkiyə Səfirliyinin mədəniyyət və tanıtma müşaviri Seyit Ahmet Arslan və ekonomi müşaviri Esin Yücekayalıya xatirə plaketi verilib.






















ATİB










ATİB


ATİB





Ekovitrin

# ATİB İdarə heyətinin üzvü “İlin İş Adamı” adına layiq görülüb

Beynəlxalq aylıq iqtisadiyyat və iş dünyası jurnalı “Ekovitrin” tərəfindən təşkil edilən “İlin Ulduzları” Mükafatlandırma Mərasimi 2 iyul 2015–ci il tarixində “Istanbul WOW Hotel Convention Center”də reallaşdırıldı.  Bu il yanvarın 1-dən etibarən başlayan “İlin Ulduzları” sorğusunda 27 müxtəlif bölmə üzrə 81 namizəd yarışırdı. Sorğuda iştirak edənlər bu il Türk cümhuriyyətlərində “İş Adamı” kateqoriyasında ATİB İdarə heyətinin üzvü, “RR” şirkətlər qrupunun rəhbəri Rafiq Qarayevi  “İlin İş Adamı” adına layiq görüblər.




500-ə yaxın qonağın qatıldığı “İlin Ulduzları” Mükafatlandırma Mərasiminə Avropa ölkələrindən, Türk cümhuriyyətlerinden, Orta Şərqdən və Türkiyədən iş, siyasət, təhsil və sənət dünyasının tanınmış simaları qatıldı.

Türkiyənin ən nüfuzlu media qruplarından olan “Ekovitrin” 14 ildir iqtisadiyyat sahəsində müxtəlif proqramlar hazırlayaraq, qardaş ölkənin televiziya kanallarında nümayiş etdirir, ölkənin iqtisadi uğurlarını həm türk, həm də dünya ictimaiyyətinə çatdırır. Bu media qrupunun 2000-ci ildən buraxılan “Ekovitrin” aylıq jurnalı Türkiyənin ən sanballı nəşrlərindən birinə çevrilmişdir. Türkiyə ilə yanaşı, Asiya regionunda da geniş yayılan “Ekovitrin” jurnalı ənənəvi olaraq iqtisadiyyat, biznes, sənaye, ixracat, maliyyə, investisiya, siyasət və yerli idarəçilik sahələrində “İlin adamları”nı seçir.








2005-ci ildə Türkiyədə və xaricdə yaşayan 9 minə yaxın oxucunun iştirakı ilə keçirilən sorğunun nəticələrinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Avrasiyada ilin siyasət adamı”, 2013-cü ildə isə “Türkdilli respublikalarda 10 ilin ən uğurlu dövlət adamı” seçilib.

KAFKAS
TİKİNTİ MATERİALLARI A.Ş.















F.X.Xoyski 86 Bakı, Həsən Əliyev küç., 80
Tel.: +99412 493 01 27 / +99412 564 85 26
info@kafkastikinti.com

95-ci ildən sizinlə

VitrA
DURAVIT
hansgrohe
AXOR | PHARO
GEBERIT
Devon&Devon
FAP CERAMICHE
FRANKE




# Ədalət Muradov:

## "Fəaliyyətimizi əmək bazarının tələblərinə uyğun qurmağa çalışırıq"

**Ədalət müəllim, rektor təyin edildikdən sonra universitetin inkişafı ilə bağlı apardığınız islahatlarda əsas öncəliklər nədən ibarətdir?**

**"Ə.M.:** Ölkəmizdə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas hədəflərindəndir. Bu strategiya həm də cənab Prezident İlham Əliyevin müəyyən etdiyi "insan kapitalı"nın formalaşdırılması strategiyası kimi qəbul edilə bilər. Strategiyada qeyd edilən əsas istiqamətlərin reallaşdırılması, keyfiyyət meyarlarının sistemin əhəmiyyətli dayaq nöqtəsinə çevrilməsi Azərbaycanda müasirləşən təhsilin ən mühüm təşəbbüsləri sırasındadır. Bu baxımdan universitetimizdə həyata keçirilən islahatların əsas öncəlikləri kimi əmək bazarının tələblərinə uyğun kadr hazırlığının təmin edilməsini və ölkənin rəqabət qabiliyyətini artıran insan kapitalının formalaşdırılmasına xidmət edilməsini göstərmək olar. Müasir çağırışları nəzərə alaraq, müasir bilikləri mənimsəyən, təkcə öyrənən deyil, həm də tədqiqatçı yanaşması və bacarığı ilə yeni fikir və baxışlar "istehsal edən" mütəxəssis yetişdirən universitet modelini formalaşdırmaq əsas məqsədlərimizdəndir.

**Universitetdə biznes sektorunun mövcud tələblərinə cavab verən kadr hazırlığı üçün hansı yeniliklər gözlənilir?**

**"Ə.M.:** Bu istiqamətdə gördüyümüz və görəcəyimiz işləri ölkədə əmək bazarının tələblərinin öyrənilməsi, tədris plan və proqramlarının bu tələblərə uyğunlaşdırılması, professor-müəllim heyətinin gücləndirilməsi və tədris prosesinin düzgün təşkili və keyfiyyətinin təmin edilməsi olmaqla dörd əsas qrupa ayırmaq mümkündür. Bu gün Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) dövlət və özəl sektor təmsilçiləri, nüfuzlu xarici universitetlərlə sıx əməkdaşlıq etməyə başlamışdır. Biz həm ölkə əmək bazarının tələblərini, həm də beynəlxalq əmək bazarında baş verən yeni tendensiyaları öyrənərək fəaliyyətimizi həmin tələblər istiqamətində qurmağa çalışırıq. Bu sahədə "iqtisadiyyat və idarəetmə" ixtisas qrupu üzrə bakalavr ixtisasları üçün ölkədə ali təhsilin yeni dövlət standartlarının hazırlanması prosesində universitet olaraq fəaliyyətimiz davam edir. Hazırlanan yeni dövlət standartlarında ixtisaslar üzrə tədris olunan fənlərin sayı və məzmunu əmək bazarının və Avropa Kredit Transfert Sisteminin (AKTS) tələbələrinə mühüm dərəcədə uyğunlaşdırılmışdır. Təsdiq olunmuş yeni təhsil standartları tədrisin keyfiyyətinin artırılması ilə yanaşı, "Liberal Arts" baxımın-






1930-cu ildə əsası qoyulmuş Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Cənubi Qafqaz ölkələrinin ən iri ali təhsil ocaqlarından biridir.

UNEC-də 11 fakültə fəaliyyət göstərir, 21 ixtisas üzrə 18 mindən çox tələbə və magistrant təhsil alır.

Mindən çox müəllim, o cümlədən sıralarında Milli Elmlər Akademiyasının, Nyu York Elmlər Akademiyasının həqiqi üzvləri, Dövlət Mükafatı laureatları, əməkdar müəllim və elm xadimlərinin olduğu
120 professor, 600 dosent çalışır.

UNEC-də dünyanın 12 ölkəsindən olan 850-dən çox tələbə və magistrant təhsil alır.







dan da tamamilə yeni imkanlar açır. Yeni standartlarda tələbənin sərbəst işinə əlverişli şərait yaratmaqla auditoriya saatları azaldılmış, ixtisaslar üzrə əmək bazarının tələblərinə uyğun olaraq kompetensiyalar yenilənmiş və müxtəlif ixtisaslar üzrə tədris proqramları ilk illər üzrə unifikasiya edilmişdir. MBA proqramımızın da tədris plan və proqramları tamamilə yeniləşdirilərək Avropa və Amerikanın qabaqcıl MBA proqramlarının tətbiq etdiyi standartlara uyğunlaşdırılmışdır. Hazırda magistratura səviyyəsində tədris planlarının əsaslı surətdə yenilənməsi işləri də tamamlanmaq üzrədir. ADİU sabahın keyfiyyətli ali təhsil modeli olan SABAH-ın ən fəal iştirakçılarındandır. SABAH-da təhsil alan tələbənin təxminən 1/3-nin bizim universiteti seçməsi, burada yaradılmış fərqli mühit əsasən xaricdə təhsil almış müəllimlərin SABAH-da tədrisə cəlb edilməsi və s. keyfiyyət göstəricilərinin əhəmiyyətli dərəcədə yüksəlməsinə şərait yaratmışdır. Universitetimizdə əmək bazarının tələblərinə cavab verən kadr hazırlığının həyata keçirilməsi məqsədilə atılan addımlardan biri də ingilis dilində fəaliyyət göstərən Beynəlxalq İqtisadiyyat Məktəbinin yaradılmasıdır. Artıq 2015-2016-cı tədris ilindən bu məktəb bir neçə ixtisas üzrə tədris prosesinə başlayır. Müxtəlif ixtisaslar üzrə ingilisdilli qrupları yaratmaqla bir tərəfdən ölkəmiz üçün bu dildə yüksək səviyyədə təhsil almış kadrlar formalaşdırmağı nəzərdə tuturuqsa, digər tərəfdən də İqtisad Universitetinin dünya ilə inteqrasiyasını gücləndirməyi hədəfləyirik. Ümid edirik ki, bu qruplar tam şəkildə fəaliyyət göstərdikdən sonra İqtisad Universitetinə əcnəbi tələbələrin axını güclənəcək və universitet beynəlxalq tələbə və müəllim mübadiləsi sahəsində çox böyük imkan əldə edəcəkdir. Eyni gözləntilərimiz ingilisdilli MBA proqramlarımız ilə də bağlıdır. Həmçinin 2015-2016-cı tədris ilindən başlayaraq universitetimizdə London Universitetinin bakalavr təhsil proqramları da fəaliyyətə başlayacaqdır. Hesab edirəm ki, bu təhsil proqramları ölkədə biznes sektorunun tələblərinə tam şəkildə cavab verən kadrların hazırlanmasına imkan verəcəkdir.

**Biznes təhsili üçün zəruri olan insan resurslarının, yəni müəllim heyətinin formalaşması istiqamətində universitetin qarşısında duran əsas vəzifələr nələrdir və bu istiqamətdə hansı işləri görürsünüz?**

**"Ə.M.:** Təbii ki, istənilən tələblərə cavab verən kadr hazırlığına təkcə tədris plan və proqramlarının təkmilləşdirilməsi ilə nail olmaq mümkün deyildir. Bunun üçün adekvat bilik və bacarıqlara malik professor-müəllim heyətinin də olması zəruridir. Bu məqsədlə keçən ildən başlayaraq universitetimizdə işə qəbul komissiyası yaradılmış, müasir biliklərə yiyələnmiş, Amerika, Avropa və Türkiyədə təhsil alan bir çox perspektivli gənc kadrlar, eyni zamanda da təcrübəli və peşəkar mütəxəssislər müsabiqə yolu ilə işə qəbul edilmişlər. Bununla yanaşı, uzun illərdir universitetimizdə çalışan, bilik və bacarığı ilə seçilən kadrlarımızın potensialından da maksimum şəkildə istifadə etməyə çalışırıq və bu yanaşmamız gələcəkdə də davam edəcəkdir. Universitetimizin kadr potensialının gücləndirilməsi sahəsində gələcəyə istiqamətlənmiş önəmli layihələrimiz də var. Belə ki, hazırda "gənc professor" layihəmizi icra etməyə başlamışıq və bu layihə çərçivəsində yaşı 40-dan aşağı olan professorlar yetişdirməyi qarşımıza hədəf qoymuşuq. Bu layihə çərçivə-



sində hazırda universitetimizdə çalışan və fəlsəfə doktoru dərəcəsinə malik gənc və perspektivli kadrlar seçilərək elmlər doktorluğu üzrə doktoranturaya qəbul edilir və onların qısa müddət ərzində dissertasiyalarını tamamlamaları üçün bütün müvafiq imkanlar yaradılır. Elə bu semestr həmin gənclərdən 6-nı öz tədqiqatlarını türkiyəli nüfuzlu professorların rəhbərliyi altında davam etdirmələri məqsədilə bir aylıq müddətə Hacettepe, Uludağ və Sakarya universitetlərinə göndərdik. Digər bir layihəmiz "gənc müəllim" layihəsidir. Bu il universitetimizdə müəllimlik fəaliyyətinə başlamaq istəyənlər üçün müsabiqə elan etdik və 60-ı xaricdə təhsil alanlar olmaqla, yaşı 30-u aşmamış 400-dən çox gənc bu müsabiqəyə müraciət etmişdir. Hazırda onlar arasında seçim prosesi davam edir və seçim nəticəsində onların ən yaxşılarını seçərək assistent və müəllim vəzifələrinə təyin edəcəyik. Gənc fəlsəfə doktorlarının yetişdirilməsi istiqamətində də ciddi layihələrimiz var. Belə ki, ilk növbədə magistr dərəcəsinə malik bir çox perspektivli gəncimizi fəlsəfə doktorluğu üzrə doktoranturaya qəbul edir və onların dissertasiyalarını qısa müddətdə uğurla tamamlamaları üçün bütün imkanlarımızı səfərbər edirik. Eyni zamanda artıq əldə etdiyimiz razılıq əsasında Türkiyədə universitetimiz üçün fəlsəfə doktoru pilləsi üzrə kadr hazırlığı imkanlarından da yararlanmağı düşünürük. Nəhayət, bütün bunlarla yanaşı, universitetimizdə akademik kadr hazırlığı prosesinin ciddi şəkildə təkmilləşdirilməsinin də vacibliyini düşünürük və bu məqsədlə yaxın dövr ərzində assistent institutunun formalaşdırılması istiqamətində işlərə başlamağı və yeni yaratdığımız, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi nəzdində Türkiyə universitetləri də daxil olmaqla, xarici universitetlərlə ortaq proqramlar çərçivəsində müasir tələblərə cavab verən magistratura və doktorantura təhsilini təşkil etməyə hazırlaşırıq.

**Bəs universitetinizdə tədris prosesinin keyfiyyətinin təmin edilməsi sahəsində hansı işləri görürsünüz?**

**"Ə.M.:** Bunun üçün ilk növbədə universitetimizdə bu istiqamətdə işləri təşkil və idarə edəcək yeni struktur – "Tədrisin keyfiyyətinin qiymətləndirilməsi və idarə edilməsi" mərkəzini yaratmışıq. Mərkəzin əsas işi universitetdə tələbələrə yüksək təhsil nailiyyətləri əldə etməyə imkan verən tədris mühitini formalaşdırmaqdır. Hazırda bizim bu istiqamətdə gördüyümüz işlərin təməlində universitetimizdə təhsilverənlərlə təhsilalanlar arasında qurulan münasibətlərin sağlam zəminini formalaşdırmaq dayanır. Bunun üçün tədris prosesinə mütərəqqi təcrübəyə malik kadrları, o cümlədən də xarici ölkələrdə təhsil almış və inkişaf etmiş ölkələrin təhsil sistemi ilə yaxından tanış olan gəncləri cəlb edir, tədris intizamını gücləndirir, biliyin qiymətləndirilməsi sistemini təkmilləşdirir, təhsil prosesi iştirakçılarına göstərilən inzibati xidmətləri elektronlaşdırır, tədris plan və proqramlarını beynəlxalq standartlara uyğunlaşdırır və tədris prosesinin resurs təminatını gücləndiririk. Fürsətdən istifadə edərək onu da deyim ki, biz universitet Elmi Şurasının qərarı ilə 2015-2016-cı tədris ilini "tədrisdə keyfiyyət ili" elan etmişik. Hazırda bu istiqamətdə də geniş tədbirlər planı hazırlayırıq və növbəti tədris ilində həyata keçirəcəyik.

**Biznes sektorunun tələblərinə cavab vermək istiqamətində universitetin nəzdində fəaliyyət göstərən "İnnovativ Biznes-İnkubator"un rolunu necə qiymətləndirirsiniz?**

**"Ə.M.:** Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı çərçivəsində müvafiq ixtisaslar üzrə hazırlanan gənclər üçün biznes-inkubatorların yaradılmasına xüsusi yer verilmişdir. Tələbələrin biznes biliklərinə və bacarıqlarına mükəmməl yiyələnməsinin prioritet istiqamət kimi müəyyənləşdirildiyi "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda da haqlı olaraq qeyd edilir ki, son 30-40 il ərzindəki elmi-texniki tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Bizim "İnnovativ Biznes-İnkubator" layihəmiz də ölkəmizdə bu sahə üzrə ilk universitet təşəbbüsü və layihəsi hesab oluna bilər. Belə ki, 15 iyul 2014-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə İqtisad Universiteti arasında "İnnovativ Biznes-İnkubator"un yaradılması barədə müqavilə imzalanmışdır. Əməkdaşlıq çərçivəsində təlim kurslarının keçirilməsi, startapların inkişafına dair və gənc biznesmenlər üçün maarifləndirici metodiki vəsaitlərin, kitabların hazırlanması, tərcümə edilməsi, "İnnova-

tiv Biznes-İnkubator"un internet saytının yaradılması və digər tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. "İnnovativ Biznes-İnkubator"un əsas fəaliyyət istiqaməti ilk tələbə startaplarının yaradılması və onların inkişafıdır. Qeyd edim ki, "İnnovativ Biznes-İnkubator"da ilk mərhələdə startaplar əsasən təlim mərkəzi, biznes klinik və kovorkinq istiqamətləri üzrə fəaliyyət göstərir. "İnnovativ Biznes-İnkubator" universitetin professor-müəllim heyətini təhsil və elmi-innovativ layihələrə cəlb etmək və tələbə startaplarına tədris-metodiki, maddi-texniki, psixoloji və maliyyə dəstəyi vermək yolu ilə Azərbaycanda gənc menecer və sahibkarların yetişdirilməsinə xidmət göstərməyi qarşısına məqsəd qoymuşdur. Qısa müddət ərzində "İnnovativ Biznes-İnkubator" tələbələrin təşəbbüskarlıq meyillərini artırmaqla yanaşı, universitetə müxtəlif mənbələrdən maliyyə vəsaitinin cəlb olunmasına da zəmin yaratmışdır. Artıq bu istiqamətdə real nəticələr əldə edilmiş, "İnnovativ Biznes-İnkubator" dövlət qurumlarından və bir sıra özəl təşkilatlardan müxtəlif layihələrin icrası ilə bağlı sifarişlər almışdır. Ancaq dünya təcrübəsi göstərir ki, bu tipli qurumlardan daha yüksək nəticələr əldə etmək üçün müəyyən zamana ehtiyac vardır.

**Bəs özəl sektor biznes təhsil mərkəzləri ilə əməkdaşlığa kifayət qədər maraq göstərirmi?**

**"Ə.M.:** Təbii ki, inkişaf etmiş ölkələrlə müqayisə etdikdə bu sahədə qət edəcəyimiz məsafə kifayət qədərdir. Ancaq öz təcrübəmizdən çıxış edərək deyə bilərəm ki, ölkəmizdə xüsusilə ATİB kimi işəgötürən təşkilatlarda birləşmiş şirkətlər bu baxımdan müsbət mənada fərqlənirlər. Hesab edirəm ki, özəl sektor şirkətləri arasında professionallıq, korporativ idarəetmə ənənələri gücləndikcə onların biznes təhsil mərkəzləri ilə əlaqəyə maraqları da artacaqdır.

**Azərbaycan Dövlət İqtisad Universiteti ilə Azərbaycan Türkiyə İş Adamları Birliyi arasında imzalanmış memoranduma əsaslanaraq birgə əm əkdaşlığın potensial istiqamətlərini necə görürsünüz?**

**"Ə.M.:** Hazırda bizim ATİB-lə nümunəvi bir əməkdaşlığımız var. Keçən tədris ilində ortaq elmi-praktiki tədbirlərin keçirilməsi, tələbələrin istehsalat təcrübələrinin təşkili, professor-müəllim və tələbə heyətinin fəaliyyətinin stimullaşdırılması istiqamətlərində əməkdaşlığımızı çox uğurlu hesab edirəm və fürsətdən istifadə edərək, bu əməkdaşlığın inkişafında xüsusi səylər göstərən, başda hörmətli dostumuz Cemal Yangın olmaqla, bütün ATİB rəhbərliyinə öz təşəkkürümü bildirmək istəyirəm. Hesab edirəm ki, gələcəkdə bu istiqamətdəki əməkdaşlığımızı davam etdirməklə yanaşı, həmçinin də universitetimizdə tədris prosesinin təkmilləşdirilməsi, elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması istiqamətlərində də birgə fəaliyyətimiz faydalı olardı.

**Ədalət müəllim, qısa müddətdə həyata keçridiyiniz bu işlərin ilkin nəticələrini görürsünüzmü?**

**"Ə.M.:** Təbii ki, görülən işlərin nəticələrinin bizim tərəfimizdən qiymətləndirilməsi doğru olmazdı. Hesab edirik ki, bizim fəaliyyətimizə kənar müşahidəçilər və bütövlükdə cəmiyyət daha obyektiv qiymət verə bilər. Sadəcə bir məlumatı diqqətinizə çatdırım ki, dünyanın 25 mindən artıq ali təhsil müəssisəsini əhatə edən "Webometrics" bu il üçün növbəti reytinqini açıqlayıb. Dünya universitetlərinin elan edilən reytinqinə ümumilikdə Azərbaycanın 41 ali təhsil müəssisəsi daxil edilib. Bu reytinqdə Azərbaycan Dövlət İqtisad Universiteti ilk dəfə olaraq dünyanın Top-5000 universiteti siyahısında yer alıb və Azərbaycan universitetləri arasında birinci yerə layiq görülüb. Məlumat üçün deyim ki, universitetimiz bir neçə ay öncə bu reytinqdə Azərbaycan universitetləri arasında 13-cü sırada idi. Universitetimiz bu reytinqdə eləcə də Mərkəzi və Şərqi Avropa universitetləri üzrə mühüm irəliləyişə nail olmuşdur. Belə ki, Azərbaycan Dövlət İqtisad Universiteti region universitetləri arasında 330-cu yerdə qərarlaşmış və TOP-500-ə daxil olmuşdur. Bütövlükdə Avropa universitetləri arasında ADİU 1231-ci yerə yüksəlmiş və ilk dəfə olaraq regionun "TOP-1500"nə daxil olmuşdur.

Bu gün cənab Prezident tərəfindən İqtisad Universitetinin qarşısında dünya səviyyəli universitet olmaq vəzifəsi qoyulub. Biz də dünya səviyyəli universitet olmaq üçün ilk növbədə dünyanın inkişaf etmiş universitetlərində mövcud olan mütərəqqi sistemləri, həmçinin də dünya ali təhsil sistemində ortaya çıxan müasir tendensiyaları yaxından öyrənərək, öz işimizi onlara uyğun qurmağa çalışırıq. Hazırda bütün gücümüzlə çalışırıq ki, qarşıya qoyulan bu hədəfə daha tez və daha səmərəli şəkildə nail olaq.

**Ədalət müəllim, sonda belə ətraflı və səmimi müsahibə üçün Sizə təşəkkürümüzü bildirmək istəyirik. Çox sağ olun.**

**"Ə.M.:** Mən sizə təşəkkür edirəm və işlərinizdə uğurlar diləyirəm.

**Ədalət Muradov**

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru



*Muradov Ədalət Cəlal oğlu 29 yanvar 1962-ci ildə anadan olmuşdur. Taras Şevçenko adına Kiyev Dövlət Universitetinin İqtisadiyyat fakültəsini 1990-cı ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1989-cu ildə tələbələr arasında keçirilən Ümumittifaq Olimpiadasında "İqtisadiyyat və istehsalın təşkili üzrə" SSRİ-də 2-ci yerə layiq görülmüşdür.*

*1990-cı ildə Kiyev Dövlət Universitetinin əyani aspiranturasına daxil olmuş və 1993-cü ildə "Bazar iqtisadiyyatına keçid şəraitində region iqtisadiyyatının struktur dəyişiklikləri" mövzusunda dissertasiya müdafiə etmişdir.*

*1998-ci ildə isə "Keçid iqtisadiyyatının dünya təsərrüfatı sisteminə inteqrasiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.*

*1995-1999-cu illərdə T.Şevçenko adına Kiyev Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur.*

*1998-1999-cu illərdə "ИБ Австрия Секюритз (Украина)» İnvestisiya Bankında "Postsovet keçid iqtisadiyyatlarının tranformasiyasının təhlili" şöbəsinin müdiri vəzifəsində çalışmışdır.*

*1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında professor vəzifəsində çalışmış, "Makroiqtisadiyyat", "İqtisadiyyatın dövlət tənzimlənməsi", "Azərbaycanın iqtisadi siyasəti" fənlərini tədris etmişdir. 3 dərs vəsaitinin, 3 monoqrafiyanın, 3 tədris proqramının, 60-dan artıq elmi məqalənin müəllifidir.*

*2002-ci ildən Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyində (İqtisadiyyat və Sənaye Nazirliyində) çalışmışdır. 2002-2007-ci illərdə həmin nazirliyin "Makroiqtisadi təhlil və proqnozlaşdırma" şöbəsinə, 2007-2009-cu illərdə "Xarici ticarət siyasəti və Ümumdünya Ticarət Təşkilatı" şöbəsinə, 2009-2014-cü illərdə isə "İqtisadi siyasət, təhlil və proqnozlaşdırma" şöbəsinə rəhbərlik etmişdir.*

*Azərbaycan Respublikası Prezidentinin 5 mart 2014-cü il tarixli sərəncamı ilə Ədalət Cəlal oğlu Muradov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru təyin edilmişdir.*



# Fərid Əhmədov:

## “Hədəf seqmentimiz öyrənmək və tətbiq etməklə inkişaf etməyi hədəfləyən tələbələrdir”

**Hörmətli Fərid müəllim, 2015-ci ildən etibarən Azərbaycan Universitetinə artıq Siz rəhbərlik edirsiniz. Öncəliklə fəaliyyətinizdə uğurlar arzulayırıq. Bilmək istərdik ki, universitetin bugünkü vəziyyətini necə dəyərləndirirsiniz?**

**F.Ə.:** Azərbaycan Universiteti ölkənin ali təhsil bazarında kiçik sayla özünəməxsusluğu qorumağa çalışır. Universitetin ölkənin ali təhsil bazarında payı təxminən 1%-dir, onun keyfiyyətli təhsilə töhfəsi isə, mən deyərdim ki, bundan qat-qat çoxdur. Kiçik say rəqabət qabiliyyətlərini daha qabarıq şəkildə büruzə vermək üçün məhdud sahələrə fokuslaşmış universitet modelini tətbiq etməyə imkan verir.

Bu həm də aralarında asan təhsil axtaranların çox olduğu tələbə kontingentinin içindən öz inkişafı üçün daha çox çalışmaq istəyi olan seqmentin cəlb edilməsinə imkan verir. Lakin bunun üçün universitetin yetərincə və düzgün tanıdılması da şərtdir. Belə ki, AU ölkənin ilk özəl universitetlərindən biri olmasına və bəzi ixtisaslar üzrə ən keyfiyyətli tədris təqdim etməsinə baxmayaraq, hesab edirəm ki, yetərincə tanınmayıb. Universitetin üzləşdiyi digər çətinliklər əsasən yaxşı təhsilin meyarları, ona olan tələbat və onun təşkili üçün olan potensial kimi mühit amilləridir. Lakin universitetin öz rəqabət qabiliyyətini reallaşdırmaq üçün təklif etdiyi ixtisasları da yenidən seçməsinə və maddi-texniki bazasının da bunun ətrafında inteqrasiyasına və gücləndirməsinə böyük ehtiyac var.

Üstün cəhətlərimizə, ölkədə biznes sahəsinin qabaqcıl peşəkarlarından hesab olunan Qərbtəhsilli yerli və xarici müəllimlərin cəlb edilməsi, təhsildə qabaqcıl kurikulumun və dərs vəsaitlərinin istifadəsi, habelə kiçik qrup ölçüləri və bazarın tələb etdiyi səriştələr əsasında hazırlanmış nəticəyönümlü təhsil daxildir. Bundan əlavə, burada yaxşı oxuyan tələbələrə yüksək təqaüd verilir.

**Universitetin qısa və uzunmüddətli hədəfləri nələrdir və bu təhsil ocağının gələcəkdə Azərbaycan təhsilindəki yerini necə görürsünüz?**

**F.Ə.:** Niyyətimiz uzunmüddətli perspektivdə məhdud sahələr üzrə regional əhəmiyyətli ali təhsil ocağına çevrilməkdir. Buna çatmaq üçün strateji baxışımız da var və indi aralıq hədəflərlə birlikdə potensialımızı tam səfərbər edəcək plan hazırlayırıq. Aralıq hədəflər çoxşaxəli və iddialıdır. Üzərimizə düşən əsas vəzifələrdən biri tələbə-mərkəzli universitet modelinin tətbiqidir.

Hədəflərimizə biznesin müxtəlif sahələri olan maliyyənin, risklərin, layihənin, marketinqin və sairin idarə edilməsi üzrə mütəxəssis hazırlığı proqramını gücləndirərək onun əsasında iqtisadiyyatın ayrı-ayrı sektorları üzrə menecerlərin hazırlanması işini təşkil etmək və burada da liderliyi qazanmaq daxildir. Bunlara səhiyyənin, kənd təsərrüfatının, hotelçiliyin, qida sənayesinin və ölkədə əsas tələb olunan digər sektorların menecmenti daxildir. Hazırda bu sahələrdə qabaqcıl proqramlar üzrə təhsil almış menecerlərə yüksək ödənişli əmək bazarında böyük tələbat var




və kiçik universitet olaraq bizim tələbatı daha çevikliklə izləmək imkanımız olacaqdır. Həmin sahələrdə qabaqcıl magistr və təcrübəli peşəkarlar üçün təkmilləşməni nəzərdə tutan "executive" proqramların tətbiqi universitetlə iqtisadiyyatın qarşılıqlı faydalanma prinsipləri əsasında inkişafı deməkdir. Bunların da reallaşması, təbii ki, universitetin müvafiq sahələr üzrə əlaqələrinin və infrastrukturunun inkişafına paralel aparılacaq.

Bundan əlavə, universitet reytinqlərini müəyyən edən amillər üzrə iş strateji planın davamlı vəzifələri sırasındadır. AU bu gün ölkədə ən keyfiyyətli və ən şəffaf təhsil təqdim edən ali məktəblərdəndir, lakin onun tanıdılması yetərincə olmamışdır və bu da bizim üzərimizə rebrendinq və marketinqlə əlaqədar vəzifələr qoyur. Buna tada daxildir. Mərkəz, qabaqcıl bizneslərlə əlaqələrdən istifadə edərək, onların təlim-konsaltinq ehtiyaclarını ödəyəcək və bundan başqa, universitet həyatında müxtəlif biznes tədbirlərinin, habelə tələbələrin ev tapşırıqlarında şirkətlərin real sifarişlərinə əsaslanan biznes araşdırmalarının yer almasına xidmət edəcəkdir. İşgüzar əlaqələr MBA proqramının əsas atributlarından biridir və mərkəz bu atributun daha da güclənməsinə xidmət edəcəkdir. Eləcə də tələbəyə təhsilin dili, müddəti, rejimi, ixtisaslaşma barədə seçimlərin verilməsini nəzərdə tutan proqramların inkişafı, onun potensial qabiliyyətlərinin aşkarlanmasına və tələbənin özünün ən üstün cəhətlərini bilərək, onun üzərində inkişaf ssenarisini seçməsinə və reallaşdırmasına yardım edir.

Bunlardan əlavə, ikili və birgə diplom üzrə mübadilə proqramlarının inkişafı, peşəkar tə-

## AU bu gün ölkədə ən keyfiyyətli və ən şəffaf təhsil təqdim edən ali məktəblərdəndir...

nınmanı, effektivlik və səmərəliliyi dəstəkləyəcək vertikal inteqrasiya da daxil ola bilər. Yəni "axın boyunca yuxarıya" getdikdə, ali təhsilin altyapısını möhkəmlədəcək lisey yaradıla bilər ki, bu da keyfiyyətin və risklərin idarə olunmasında həlledici ola bilər. Eləcə də "axın boyunca aşağıya" doğru, məzunların elmi və praktiki sahələr üzrə universitetsonrası fəaliyyətlərini təmin edəcək əlaqələr yaradılır. Universitetin aparıcı holdinqlərdən biri olan "Sinergy Group" daxilində olması və müəllimlərinin özəl sektorda menecment səviyyəsində təmsil olunması bu planların reallaşmasına geniş imkanlar yaradır. Bunun üçün təhsil əmək bazarının və xarici universitetlərin magistratura və doktoranturalarına qəbul şərtlərinə uyğun aparılır və Karyera mərkəzinin işinin gücləndirilməsi aralıq hədəflər arasında yer almışdır.

Hədəflərimizə tələbələri və məzunları öz sahələri üzrə tanınmış peşəkar olan müəllimlərimiz ətrafında səfərbər edəcək Biznes mərkəzinin yaradılması limçi statuslu müəllimlərin məmnunluğunun gücləndirilməsi və keyfiyyətin təmin olunması və nəticəyönümlü idarəetmə sistemlərinin inkişafı əsas hədəflərimizdir.

**Bildiyimizə görə, universitetinizin infrastrukturunun, maddi-texniki bazasının yaxşılaşdırılması üçün işlər aparırsınız. Açıqlaya bilərsinizmi, bu işlər hazırda hansı mərhələdədir və biz yekunda hansı yeniliklərə şahid olacağıq?**

**F.Ə.:** Biz hələlik elektron bazanın təkmilləşdirilməsi və mövcud binaların tədrisin müasir metodlarının tətbiqi üçün daha yararlı hala salınması kimi kiçik və ya lokal işlərdən başlamışıq. Daha böyükmiqyaslı işlər strateji plana daxildir ki, indi bunların açıqlanması bir az erkən olardı. Sadəcə onu deyim ki, hazırda bu sahədə görülməli işlər xeyli çoxdur, lakin onlar pərakəndə şəkildə deyil, strateji plana müvafiq və hədəflərin reallaşması istiqamətində aparılmalıdır. Bura, o




Azərbaycan Respublikasında təsis olunmuş ilk özəl universitetlərdən olan Azərbaycan Universiteti (AU) 1991-ci ildə fəaliyyətə başlayıb. Universitetin təsisçisi fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilovdur.

Azərbaycan Universitetində 4 fakültə və 9 kafedra fəaliyyət göstərir, 265 müəllim çalışır. Elmi-pedaqoji heyətdən 1 nəfəri AMEA-nın müxbir üzvü; 15 nəfəri elmlər doktoru; 62 nəfəri elmlər namizədi; 25 nəfəri Ph.D; 13 nəfəri professor; 52 nəfəri isə dosentdir.

AU-da tədris Azərbaycan, rus və ingilis dillərində aparılır. Universitet öz məzunlarına diplom vermək və dövlət ali məktəblərinə şamil edilən bütün güzəştlərə, o cümlədən hərbi xidmətdən möhlət hüququna malikdir.

Azərbaycan Universitetinin 1995-2015-ci illər ərzində 3000-ə yaxın (2953) bakalavriat, 1999-2015-ci illər ərzində 342 magistratura məzunu olub.







cümlədən elektron kitabxana daxil olmaqla Tələbə mərkəzinin və yuxarıda qeyd edilən sair mərkəzlərin və yeni ixtisaslar üzrə laboratoriyaların yaradılması daxildir.

Amma sözsüz, bu istiqamətdə ən ümdə vəzifəmiz, sözün tam mənasında, tələbə-mərkəzli universitetə çevrilmək üçün maddi-texniki bazanın inteqrə edilmiş kampus modeli əsasında təkmilləşdirilməsidir. Müasir tələbənin məişət ehtiyaclarından tutmuş peşəkar əlaqələr və elmi fəaliyyətinədək hər şey tələbənin ayağına ən asan həzmediləcək formada gətirilməlidir. Bu, təkcə infrastruktur deyil, onunla birlikdə tamamilə fərqli mühit deməkdir. İnanıram ki, yalnız təhsilə və onun nəticələrinə bu cür, sözün yaxşı mənasında "tilsimlənmiş" tələbə oxuduğu müddətdə davamlı transformasiyalardan keçər və sürətlə inkişaf edər. Odur ki, tələbə universitetə qədəm qoyduğu gündən inkişafın "sehrli aləminə" düşməlidir. Orada onun öyrənməsinə və inkişafına heç nə mane olmamalı, hər şey onun potensialının üzə çıxmasını və həmin istiqamətdə inkişafını stimullaşdırmalıdır.

**Azərbaycan Universiteti xarici tələbələr üçün əsasən hansı istiqamətlər üzrə təhsil xidmətləri təklif edir və hansı ölkələrdən tələbələriniz var?**

**F.Ə.:** Hələlik bizdən asılı olmayan səbəblərə görə bu sahədə xidmətlərimizin həcmi məhduddur və uzunmüddətli təhsil və ya qısamüddətli dil hazırlığı kimi xidmətlərimizdən faydalanan əcnəbilərin sayı minimuma enmişdir. Ümumilikdə isə, bütün istiqamətlər xarici tələbələr üçün açıqdır və gələcəkdə bu xidmətləri genişləndirmək niyyətindəyik.

Apardığımız araşdırmaya görə, ölkəmizdə ali təhsilə tələbat əsasən yaxın coğrafiyadandır, hər üç dildə və ali təhsilin bütün səviyyələri üzrə mövcuddur və xeyli dərəcədə qarşılanmamış qalır. Təqdim etdiyimiz sahələr üzrə bu tələbatın qarşılanması və bunun üçün universitetin tanıdılması və əcnəbi tələbələrə yönəlik xidmətlərin və çevik qrafiklərin hazırlanması ortamüddətli planlarımıza daxildir.

**Bir tələbənin "Nə üçün Azərbaycan Universitetini seçim" sualına ən ruhlandırıcı cavab nə ola bilər?**

**F.Ə.:** Bunun cavabı çoxdur. Söhbətimin əvvəlində qeyd etdiyim kimi, biz nə qədər kiçik olsaq da, özünəməxsusluqlarımız çoxdur və məhdudiyyətlərə rəğmən bugünədək qoruyub saxlaya və inkişaf etdirə bilmişik.

Misal üçün, bura öyrənmək və öz potensialını aşkar edib inkişaf etmək istəyən tələbələr üçün ən münasibdir, əzbərləmək və başqa yollarla qiymət almaq istəyən tələbələr üçün isə qətiyyən uyğun deyil və belələri çox geri qalacaq və dəyişməyə məcbur olacaqlar. Məqsəd formalaşmış stereotipləri qırmaqdır, burada əsas prinsip heç oxumaq da deyil, öyrənmək və tətbiq etməkdir. Verilən materiallar çox olmağa deyil, praktik olmağa yönəlib ki, tələbə öyrənmənin abstrakt deyil, faydalı, maraqlı və fərdi inkişafın bir parçası olduğuna inansın. Kurikulum müxtəlif elmlərdən bir parça prinsipi ilə deyil, tələbənin seçdiyi istiqamətdə ardıcıl və bütöv hazırlanması prinsipi ilə hazırlanıb və tətbiq edilir. Məzmun bazarın tələblərinə uyğunlaşdırıldığından, tələbənin ilbəil peşəkar dəyərinin artmasına xidmət edir və hər bir sahə üzrə bilik və praktik vərdişlərdən əlavə, münasib davranış və ritorika qazandırır. Fənlər bir-birini tamamladığından və praktiki tətbiqi tapdığından tələbə özü də bu inkişafı özündə kəşf edir və öyrənmək üçün daha çox motivasiya olur. Odur ki, bizim hədəf seqmentimiz öyrənmək və tətbiq etməklə inkişaf etməyi və peşəkara çevrilməyi özünə hədəf edən tələbələrdir və onlara müraciətimizin daha güclü səslənməsi üçün bayaq qeyd etdiyim rebrendinqə ehtiyacımız var.

Həmçinin qabaqcıl holdinq tərkibində fəaliyyət göstərməyimiz təlim, təcrübə və iş istiqamətlərində yararlanmaq imkanı verir. İşəgötürənlər də özlərinə lazım olacaq mütəxəssisləri tələbələrimiz arasında tapa bilirlər və onların dil, ünsiyyət və texniki bacarıqlarından uğurla istifadə edirlər. İngilis dilinin inkişafına digər universitetlərdən daha çox saat ayrılmasına baxmayaraq, bakalavrlar hazırda ingilisdilli təhsili cəmi dörd ilə tamamlayırlar. Bu da onlar üçün vaxt və maliyyə qazancı deməkdir. Universitetə tələbələrlə birbaşa praktik iş və seminarlar aparmaq məqsədilə hər həftə kənardan tanınmış biznes peşəkarla-

rı dəvət olunur. Tələbələri daha yaxşı oxumağa stimullaşdırmaq məqsədilə üçpilləli daxili təqaüd proqramı tətbiq edilir və onların xarici universitetlərlə mübadilə proqramlarında iştirakı maliyyələşdirilir. Bura, nəhayət, valideynlərin övladlarının təhsilindən daha çox rahat ola biləcəyi və inkişafından qürrələnəcəyi ali təhsil ocağıdır.

**Universitetinizdə digər ixtisaslarla yanaşı biznes və iqtisadiyyatyönümlü ixtisaslar da var. Jurnalımızın bu sayının mövzusu biznes təhsili olduğu üçün belə bir sualımız var: biznes təhsili almaq isytəyən gənclər nə üçün Azərbaycan Universitetini seçməlidir?**

**F.Ə.:** Çünki onlar burada ölkə biznesinin qabaqcıl peşəkarları hesab olunan Qərbtəhsilli yerli və xarici müəllimlərdən biznesin incəliklərini öyrənəcəklər və «göz qabağında» aybaay peşəkar kimi yetişməklə yaxınlarını sözün yaxşı mənasında təəccübləndirə biləcəklər. Bura tələbənin biliklərinin, dünyagörüşünün, davranışının, danışıq tərzinin və əlaqə dairəsinin dəyişdiyi və biznes aləminə peşəkar kimi qədəm qoymağa imkan yaradan laboratoriyadır. Burada ABŞ-ın aparıcı universitetinin kurikulumu əsasında innovativ və unikal ixtisas proqramları və Qərbin ən şöhrətli müəllifləri tərəfindən hazırlanan dərs vəsaitləri istifadə olunur.

Proqram tələbələrin ingilis dili, yumşaq və texniki səriştələrini ölkədə ən rəqabətli səviyyədə inkişaf etdirməklə, onların biznes karyeralarında irəliləmələrini nəzərdə tutur və bunun üçün tədris edən müəllimlərin iş təcrübəsi ilə sıx əlaqəli olması mühümdür. Müəllimlərimiz geniş korporativ təcrübəyə və yüksək vəzifələrə sahib şəxslərdir və onların peşəkar təlim-kouçinq-konsultasiyalar aparmaq təcrübələrinin olmasına diqqət edilir.

Təhsil bakalavr və magistr səviyyələrində, marketinq, maliyyə, mühasibat və audit, beynəlxalq biznes və menecment ixtisasları üzrə aparılır. Azərbaycandilli qruplarda da ingilisdilli proqramların kurikulumu, sillabusları, keyfiyyəti və orada yaranmış təcrübə eyni müəllimlər tərəfindən tamamilə tətbiq edilir. Buna digər universitetlərdə rast gəlmək mümkün deyil. İşəgötürənlərin tələbatına uyğun modulyar tədris tətbiq olunur və dərslər real biznes problemlərinin effektiv həlli yollarının axtarılması üzərində qurulur. Bakalavrlar 3-cü tədris ilindən aparıcı şirkətlərdə iş tapır və qazandıqları səriştələri tətbiq etmək imkanı qazanırlar. İnkişafın praktikliyini artırmaq məqsədilə kurikulumdan kənar təlimlər, biznes seminarları və danışıq klubları fəaliyyət göstərir.

Buranın daha bir özəlliyi mərhələli və sistemli kurikulumun tətbiq olunmasıdır. Məsələn, bakalavriatda verilən 35 fənnə sistem yanaşması tələbəni 4 il ərzində 35 kiçik, lakin ardıcıl nizamlanmış addımla orta məktəb məzunundan biznəslər tərəfindən tələb olunan peşəkara çevirir. Proqramın mərhələlərə bölünməsi isə inkişafın hər mərhələsində qiymətləndirməni və proqramın səriştələr üzrə nəticəyönümlü olmasını mümkün edir. Belə ki, tələbə ilk mərhələdə dil, kompüter və biznes üçün riyaziyyat səriştələrini mənimsəyir. Sonra keçid mərhələsində tələbə fəal dinləmə, akademik yazı, tənqidi və analitik düşüncə səriştələrini möhkəmlədir. Burada habelə təşkilati davranışın yumşaq səriştələri öyrədilir. Bunlar növbəti mərhələdə proqramın daha böyük hissəsini təşkil edən biznes fənlərində faydalı iştirakı təmin edir. Ümumi biznes səriştələrini qazanmış tələbə sonuncu mərhələdə ixtisas və strateji idarəetmə bacarıqları əldə edir.

**Biznes və iqtisadiyyatyönümlü ixtisaslar üzrə təhsil alan tələbələrin karyeralarının planlaşdırılmasına dəstək olmaqla onları iş həyatına hazırlamaq məqsədilə hər hansı bir layihə və proqramlar həyata keçirilirmi?**

**F.Ə.:** Bəli. Hər həftə kənardan tanınmış biznes peşəkarları dəvət olunur. Onlar tələbələrlə birbaşa praktik iş və seminarlar aparırlar. Bundan əlavə, tələbələrin karyera planlaşdırılması və peşəkar inkişafı onların kurikulumlarına daxil edilib və tələbələrin bu istiqamətdə hazırlığı peşəkar təcrübəsi olan müəllim tərəfindən aparılır. Burada tələbələr əmək bazarının ehtiyaclarını öyrənir və müvafiq yumşaq vərdişlər qazanırlar. Tələbələrin iş təcrübələri, habelə müəllimlərinin və onların çalışdıqları şirkətlərin fəaliyyətlərinə qısamüddətli cəlb olunmaları onların iş həyatı ilə tanışlığının və peşəkar əlaqələrinin genişlənməsinə səbəb olur. Bu sahədə görüləcək işləri sistemləşdirmək məqsədilə Biznes və Karyera mərkəzlərinin işinin təkmilləşdirilməsi nəzərdə tutulub ki, bura bizneslə əlaqədar daha çox tədbirlərin keçirilməsi, habelə şirkətlərin real ehtiyaclarına əsaslanan biznes araşdırmalarının aparılması üçün tələbələrə verilməsi daxildir. Bu, tələbələrə real şirkət adamları və onların real problemləri ilə üzləşmək fürsəti və dərslik məsələlərində tətbiq etdikləri həll metodlarını real müştəriyə təklif etmək imkanı verəcək.

**Azərbaycan Universiteti ilə Azərbaycan Türkiyə İş Adamları Birliyi arasında ölkə iqtisadiyyatının dinamik inkişafına cavab verə bilən, rəqabətyönümlü mütəxəssislərin hazırlanması üçün əməkdaşlığa dair müqavilə imzalanıb. Bu əməkdaşlıqdan gözləntiləriniz nələrdir?**

**F.Ə.:** ATİB və AU ölkədə müxtəlif sektorlardan olan bir çox qabaqcıl biznesləri birləşdirən, lakin fərqli potensialı və ehtiyacları olan platformalardır. Əməkdaşlığımız bu ehtiyacların öyrənilməsi və qarşı tərəfin potensialı tərəfindən təmin edilməsi əsasında qurularsa, qarşılıqlı faydaya əsaslanar və deməli, daha dayanıqlı və davamlı olar.

İlk növbədə ATİB böyük və qabaqcıl bir əmək bazarını təmsil edir və ATİB-in tələblərini öyrənmək və qarşılamaq bizim üçün bazarın tələblərinə uyğunlaşaraq rəqabət qabiliyyətini gücləndirmək deməkdir. Sözsüz, ATİB-i gələcəkdə Biznes və Karyera mərkəzlərinin əsas tərəfdaşı və maraqlı tərəfi kimi görürəm. Tələbələrimiz ATİB vasitəsilə iş və qısamüddətli təcrübə qazanmaq imkanı əldə edəcəklər. ATİB üzvləri universitetdə tədbirlərin keçirilməsinə və fənlərin tədris edilməsinə qonaq və ya əsas müəllim kimi cəlb edilə, habelə şirkətlərinin təlim və konsaltinq ehtiyaclarını burada qarşılaya bilərlər.

**Fərid Turab oğlu Əhmədov**
*Azərbaycan Universitetinin rektoru, hüquq üzrə fəlsəfə doktoru*

## Məqsəd formalaşmış stereotipləri qırmaqdır, burada əsas prinsip heç oxumaq da deyil, öyrənmək və tətbiq etməkdir

*Azərbaycan Universitetinin rektoru, hüquq üzrə fəlsəfə doktoru Fərid Əhmədov 14 iyul 1979-cu ildə Bakı şəhərində anadan olub. 1996-cı ildə Bakı şəhərindəki 43 saylı liseyi bitirib.*

*2002-ci ildə həm Bakı Dövlət Universitetinin (BDU) Beynəlxalq hüquq fakültəsinin bakalavriat və magistratura pillələrini, həm də 2003-cü ildə Böyük Britaniyanın "British Chevening təqaüdü" ilə təhsil aldığı Essex Universitetində magistratura pilləsini fərqlənmə diplomu ilə bitirib. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb.*

*O, dünyanın ən mötəbər və yüksək reytinqli universitetlərindən olan Böyük Britaniyanın Oksford Universitetində hüquq üzrə doktorluq dissertasiyası müdafiə edən yeganə azərbaycanlıdır.*

*Fərid Əhmədov eyni zamanda 2009-2011-ci illərdə sözügedən universitetdə müxtəlif ölkələrdən olan diplomatlara və dövlət qulluqçularına beynəlxalq hüquq fənni üzrə mühazirələr oxumuşdur.*

*2011-ci ildən rektor təyin olunduğu tarixədək ADA Universitetində, ondan öncə isə Milli Məclisdə və Konstitusiya Məhkəməsində çalışmışdır.*

*Fərid Əhmədov 26 yanvar 2015-ci il tarixində Azərbaycan Universitetinin rektoru vəzifəsinə təyin olunmuşdur.*



# Tələbələr daha çox menecment və iqtisadiyyat ixtisaslarına meyil edirlər

## Anadolu Universiteti "Azərbaycan Proqramları"nın koordinatoru Azər Hətəmov "Eco Vision" jurnalının suallarını cavablandırır

**Azər müəllim, distant (məsafədən) təhsil sahəsində 30 ildən çox təcrübəsi olan Anadolu Universiteti 2009-cu ildən başlayaraq Azərbaycandan distant formada tələbə qəbul edir. Bu illər ərzində Anadolu Universiteti "Azərbaycan Proqramları" hansı inkişaf yolunu keçib və ATİB-in buradakı rolu nədən ibarətdir?**

**A.H.:** Əvvəlcə qeyd edim ki, Türkiyənin Anadolu Dövlət Universiteti distant təhsil sisteminə 1982-ci ildən başlayıb və elə həmin il 29.500 tələbə qəbul edib. Universitet bu sistemi ildən-ilə daha da inkişaf etdirərək, hazırda tələbə sayını, bildiyiniz kimi, 2 milyona yaxın bir həddə çatdırıb. Bu gün Anadolu Universiteti tələbə sayına görə dünyanın üç ən böyük universitetindən biridir.

Hazırda Azərbaycandan 2000 nəfərə yaxın tələbə Anadolu Universitetində distant formada təhsil almaqdadır. Bunlar, əsasən, Azərbaycan və Türkiyə vətəndaşlarıdır. Bu tələbələrin müəyyən hissəsi birinci ali təhsil, digər bir hissəsi isə ikinci ali təhsil alır.

Azərbaycandan distant formada təhsil alan tələbələrlə universitet arasında çevik əlaqələndirmə yaradılması, onlara lazımi məsləhətlərin verilməsi və keyfiyyətli texniki xidmətlər göstərilməsi üçün tərəfdaşlıq prinsipi əsasında 26 avqust 2014-cü ildə Anadolu Universiteti Azərbaycan Türkiyə İş Adamları Birliyi ilə əməkdaşlığa başlayıb. ATİB Azərbaycanda yaşayaraq Anadolu Universitetində distant formada təhsil alan tələbələrlə universitet arasında lazımi əlaqələndirmə işlərini həyata keçirməklə tələbələrin təhsillərinə əlavə dəstək məqsədilə videokonfrans sistemi və bu kimi müasir texnologiyaların tətbiqi, eləcə də tələbələrin ATİB-ə üzv qurumlarda təcrübə keçməsi və işlə təmin olunmalarına lazımi dəstək göstərir. Onu da qeyd edim ki, Türkiyə Cümhuriyyətinin aidiyyəti dövlət qurumları bu layihəni diqqətdə saxlayır və həmin qurumların rəhbərləri Azərbaycana rəsmi səfərləri zamanı Anadolu Universiteti "Azərbaycan Proqramları"nın tələbələri ilə görüşürlər. Belə ki, Türkiyənin Təhsil naziri, Türkiyə Prezidenti yanında Ali Təhsil Şurasının (YÖK) sədri və digərləri, ATİB-in də yaxından iştirakı ilə, Azərbaycana səfərləri zamanı



Anadolu Universiteti "Azərbaycan Proqramları"nın tələbələri ilə səmimi görüşlər keçiriblər.

**Dünyada geniş yayılmış distant təhsilin Azərbaycanda geniş tətbiqinə rast gəlmirik. Fikrinizcə, ölkəmizdə distant təhsilin inkişaf etməməsinin səbəbi nədədir?**

**A.H.:** Azərbaycanda ali məktəblərin distant təhsil tətbiq edə bilməməsinin bir sıra obyektiv və subyektiv səbəbləri var. Ölkədəki ali məktəblər distant təhsilə keçmək istiqamətində ciddi addımlar atırlar. Amma təhsilin bu formasının qanunda öz əksini tapmasına baxmayaraq, ali məktəblərin maddi-texniki bazası bunun tam tətbiqinə hələlik imkan vermir. Hazırda bir sıra universitetlər distant təhsilə keçmək üçün işlər aparır, həmçinin Anadolu Universiteti ilə bu sahədə əməkdaşlıq edirlər. Distant təhsilin tətbiqi üçün ilk növbədə məktəblərin internetə çıxışı təmin edilməli, hər bir təhsilalanın evində müvafiq şərait olmalıdır. Təhsilalanın evdə hər hansı müəllimin mühazirəsinə qulaq asa bilməsi üçün də ali məktəbin bazası olmalıdır. Lakin distant təhsilə keçdikdən sonra təhsilalanlar bu təhsil formasına maraq göstərəcəklər. Əminəm ki, Azərbaycanda da yaxın gələcəkdə təhsilin bu forması geniş tətbiq ediləcək.

## Bu gün Anadolu Universiteti tələbə sayına görə dünyanın üç ən böyük universitetindən biridir

**Bəs distant təhsilin hansı üstünlükləri var?**

**A.H.:** Təhsilin əyani və qiyabi formaları ilə müqayisədə distant təhsil forması bir çox üstünlüklərə malikdir. Bu üstünlüklərə onun əlyetərliyi, ucuzluğu, çevikliyi və s. daxildir. Əhalinin müxtəlif təbəqələrinə distant təhsil alınmasında bərabər imkanlar yaradılır. Distant təhsil zamanı keçilən dərslər əyani formada tədris olunan dərs proqramından o qədər də fərqlənmir. Yeganə fərq ondan ibarətdir ki, distant təhsildə tələbə və müəllim arasındakı ünsiyyət üz-üzə deyil, virtual olaraq məsafədən həyata keçirilir. Təhsil almaq istəyənlər üçün heç də hər gün müəllimlə üzbəüz oturmaq şərt deyil. İnkişaf etmiş ölkələrdə distant təhsil geniş istifadə olunur. Bu baxımdan ən əlverişli təhsil üsulu açıq distant təhsildir. Sözsüz ki, distant təhsil xüsusilə işləyən, iş yerindən ayrılmaq imkanı olmayan şəxslər üçün çox əlverişlidir. Məsələn, Anadolu Universitetində distant formada ali təhsil alan və işləyən bir tələbənin ildə cəmi 4 dəfə imtahanlarda iştirak etmək zərurəti var. Bu imtahanlar isə şənbə və bazar günləri olmaqla keçirilir.

**Universitetinizdə tədris prosesi necə aparılır?**

**A.H.:** Tədris proqramlarının daha yaxşı qavranılması üçün əlavə test və sual bazası tələbələrin istifadəsinə verilib. Həmçinin Azərbaycandakı tələbələrin bütün ixtisaslara aid həm elektron, həm də kağız formatda kitablardan istifadə etmək imkanları da var. Eləcə də həftənin 5 günü Əskişəhərdən Anadolu Universitetinin professor-müəllim heyəti tərəfindən müvafiq dərs cədvəli üzrə canlı videokonfrans vasitəsilə dərslər keçilir və tələbə öz istəyi əsasında iştirak edə bilir. Anadolu Universitetində distant təhsil alan və fərdi qaydada hazırlaşan tələbələr üçün universitetin rəsmi internet səhifəsində (www.anadolu.edu.tr) tələbə girişi bölümü var. Hər bir tələbə öz tələbə biletinin nömrəsi və ona verilmiş xüsusi şifrə ilə "e-öy-

Anadolu Universitetinin əsasını 1958-ci ildə təsis edilən Eskişehir İqtisadiyyat və Ticarət Elmlər Akademiyası təşkil edirdi. 1982-ci ildən Anadolu Universitetinə çevrilərək qısa zamanda ölkənin və dünyanın böyük universitetləri arasında müasir, dinamik və yenilikçi bir universitet olaraq yerini almışdır. 1982-ci ildən distant təhsil verməyə başlayan universitet bu gün Türkiyə və 30-dan çox ölkədə distant formada təhsil alan tələbə sayına görə dünyanın meqauniversitetlərindən biridir və bu sahədə zəngin təcrübəyə malik bir ali təhsil ocağı olaraq dünyada ilk sıralarda yer alır. Anadolu Universiteti distant formada təhsil alan Türkiyə və digər ölkələrdəki tələbələrinə öz tədris proqramlarını əsasən internet üzərindən olmaqla informasiya və kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirir.





rənmə" portalına daxil olaraq təhsil aldığı tədris proqramı üzrə materialları əldə edir, eyni qaydada dərs kreditlərini, semestr-imtahan nəticələrini izləyə bilir. Anadolu Universiteti distant təhsil alan tələbələri üçün internet üzərindən "e-öyrənmə", "e-kitab", "e-seminar" xidmətlərini göstərir.

**Hazırda Anadolu Universiteti "Azərbaycan Proqramları"nda hansı ixtisaslar üzrə təhsil almaq mümkündür?**

**A.H.:** Anadolu Universiteti 2009-2013-cü illər ərzində "Azərbaycan Proqramları" üzrə 5 ixtisasdan distant təhsil verirdi. 2013-2014-cü tədris ilindən başlayaraq daha 5 ixtisas əlavə olunaraq ixtisasların sayı 10-a çatdırılıb. Bunlar Menecment, Hotel işinin idarəedilməsi, İqtisadiyyat, Beynəlxalq münasibətlər, Xarici ticarət, Bank və sığorta işi, Turizm və hotel idarəçiliyi, İctimaiyyətlə əlaqələr və reklam, Media və kommunikasiya, Əmtəə nişanlarının təbliği fakültələridir.



**Anadolu Universiteti "Azərbaycan Proqramları"na müraciət edənlər seçim edərkən hansı ixtisaslara üstünlük verirlər?**

**A.H.:** Məlumat üçün qeyd edim ki, Anadolu türkcəsində şifahi nitqi anlamaq və bu dildə öz fikirlərini asanlıqla ifadə etmək vərdişlərinin qazandırılması, Anadolu Universitetinə qəbul imtahanlarında müvəffəqiyyət qazanmaları məqsədilə abituriyentlər üçün türk dili hazırlıq kursu təşkil olunub. Kursların gedişində aparılan müşahidələr və hər bir dinləyici ilə fərdi söhbət zamanı onların seçimlərinə hörmətlə yanaşmaqla bərabər, universitetdə oxuyacağı zaman müəyyən çətinlikləri önləmək üçün tövsiyələr də veririk. Müraciət edənlərin seçiminə gəlincə, ən çox müraciət Menecment, İqtisadiyyat və Turizm bölümləri üzrədir.

## Yeganə fərq ondan ibarətdir ki, distant təhsildə tələbə və müəllim arasındakı ünsiyyət üz-üzə deyil, virtual olaraq məsafədən həyata keçirilir

**Biznes sahəsində təhsil alan tələbələr nəzəri biliklərlə yanaşı, praktik təcrübəyə də malik olmalıdırlar. Tələbələrin təcrübə əldə etməsi üçün özəl şirkətlərlə birgə hər hansı layihə həyata keçirirsinizmi?**

**A.H.:** Distant təhsil alan tələbələrin çoxu həm də işlədikləri üçün artıq müəyyən təcrübələri olur və təhsillərini başa vurduqdan sonra karyeralarını daha da möhkəmləndirmiş olurlar. Digər tərəfdən də, distant təhsil alaraq məzun olmuş şəxslər müstəqil bilik əldə etmək təcrübəsinə malik olduqları üçün yeni işə başladıqda bu təcrübə onlar üçün faydalı olur. Yuxarıda qeyd etdiyim kimi, Anadolu Universiteti Azərbaycan Türkiyə İş Adamları Birliyi ilə 2014-cü ilin avqust ayından etibarən əməkdaşlığa başlayıb. ATİB, Azərbaycanda yaşayaraq Anadolu Universitetində distant formada təhsil alan tələbələrə göstərdiyi digər dəstəklərlə yanaşı, onların ATİB-ə üzv qurumlarda təcrübə keçməsi və işlə təmin olunmalarına da lazımi dəstək göstərir. Həmçinin ATİB-in təşkilatçılığı ilə Azərbaycanda fəaliyyət göstərən nüfuzlu şirkətlərin rəhbərləri mütəmadi olaraq tələbələrlə görüşlər, seminarlar keçirirlər ki, bu da tələbələrin nəzəri bilikləri ilə yanaşı praktiki biliklərə yiyələnməsində də mühüm rol oynayır.

**Distant formada təhsil alan tələbələrə daha keyfiyyətli xidmətlər göstərilməsi üçün tərəfdaşlıq prinsipi əsasında Anadolu Universiteti ilə Azərbaycan Türkiyə İş Adamları Birliyi arasındakı əməkdaşlığın gələcək perspektivləri ilə bağlı nə deyə bilərsiniz?**

**A.H.:** ATİB Azərbaycan və Türkiyə arasında təhsil sahəsindəki mövcud əlaqələrin daha da inkişaf etdirilməsi, hər iki ölkənin iqtisadiyyatlarının dinamik inkişafına cavab verə bilən, rəqabətyönümlü mütəxəssislərin hazırlanması istiqamətində də önəmli işlər görməkdədir.

Bu baxımdan ATİB Anadolu Dövlət Universiteti ilə Azərbaycandan distant formada təhsil alan tələbələrin təhsillərinə hərtərəfli dəstək göstərməkdədir. Belə ki, tədrisin maddi-texniki bazasının möhkəmləndirilməsinə və təkmilləşdirilməsinə, universitetin nəşr etdirdiyi dərs vəsaitlərinin tələbələrə çatdırılmasına, onların peşəkar bacarıqlara yiyələnmələrinə, məzunların işlə təmin olunmalarına lazımi köməklik göstərərək təqdirəlayiq işlər görməkdədir. Mən ATİB-lə Anadolu Universiteti arasındakı əməkdaşlığın daha da inkişaf edəcəyi qənaətindəyəm. Hesab edirəm ki, ATİB MDB məkanında da türklərin yaşadığı bölgələrdə universitetin təhsil proqramlarının açılmasında, həmin ölkələrdəki iş adamları birlikləri ilə əlaqələrin qurulmasında mühüm rol oynayacaqdır.

*1990-cı və 2000-ci illərdə Dövlət Planlaşdırma və İqtisadiyyat Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində çalışmış, Azərbaycanın müstəqilliyinin ilk dövrlərində Xarici Əmək Miqrasiya İdarəsinin rəhbərliyində təmsil olunaraq bir çox dövlətlərlə əmək miqrasiyası sahəsində əməkdaşlıq əlaqələrinin qurulmasında yaxından iştirak etmişdir. 1998-2000-ci illərdə nazirliklərarası təcrübə mübadiləsi aparmaq məqsədilə Türkiyə Respublikasının aidiyyati nazirliklərinə rəsmi ezamiyyəti çərçivəsində həmçinin Türkiyənin təhsil sistemi ilə də yaxından tanış olmuşdur. 2002-ci ildən başlayaraq Azərbaycanda təhsil sahəsində paralel olaraq ictimai fəaliyyət göstərməyə başlamışdır. 2002-2010-cu illər ərzində təhsil ilə əlaqədar keçirilən beynəlxalq və respublika əhəmiyyətli tədbirlərdə iştirak etmiş, 2005-2007-ci illərdə "Rəhbər təhsil işçilərinin respubika konfransı"nda, 2008-ci ildə keçirilən "Azərbaycan Müəllimlərinin XIII qurultayı"nda iştirak etmiş və "Azərbaycan Milli Müəllim-Valideyn Asosiasiyasının fəaliyyəti mövzusunda çıxış etmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 8 may 2009-cu il tarixli əmri ilə nazirliyin "İnternetdən istifadə məsələləri üzrə Şurasına üzv seçilmişdir. Azərbaycan Respublikası Təhsil nazirliyi Kollegiyasının 17 dekabr 2009-cu il tarixli qərarı ilə "Azərbaycan Milli Müəllim-Valideyn Assosiyasının işində fəal iştirakına görə" Təhsil naziri tərəfindən Fəxri Fərmanla təltif olunmuşdur.*

*2011-ci ildən Türkiyə Respublikasının Anadolu Dövlət Universitetinin "Azərbaycan Proqramları"nın koordinatorudur.*

# Azərbaycandakı şirkət və qurumlarda çalışan Türkiyə, Azərbaycan və digər ölkə vətəndaşlarının nəzərinə!

Sizlərə iş yerinizdən ayrılmadan ali təhsil (və ya kollec pilləsində) almaq fürsəti !









Bu imkandan istifadə edərək siz Azərbaycandan Türkiyənin Anadolu Dövlət Universitetində 10 ixtisas üzrə distant formada ali təhsil ala bilərsiniz.

Distant təhsilalma forması həmçinin sizlərə ***2-ci və ya paralel ali təhsil almaq şansını da verir.*** Distant təhsilalma formasında sizin ildə cəmi 4 dəfə (şənbə və bazar günləri) Bakı və ya Gəncə şəhərlərində imtahanlarda iştirak etmək zərurətiniz var. Qəbul imtahanları isə T.C. Azərbaycandakı Səfirliyinin və Təhsil Müşavirliyinin təşkilati dəstəyi ilə 20 Noyabr 2015-ci il tarixdə Bakı şəhərində keçiriləcəkdir.





## Bundan öncə Türkiyədə kollec (önlisans) və ya ali təhsili olanlar imtahansız qəbul olunurlar.

**30 ildən artıq** distant təhsil verən Anadolu Dövlət Universiteti bu gün 2 milyona yaxın tələbə sayına görə dünyanın 3 ən böyük universitetindən biridir. Azərbaycandan Anadolu Universitetində distant formada təhsil alan tələbələrə, texniki dəstək göstərilməsi və digər əlaqələndirilmə işlərinin aparılması ATİB-in təşkilatçılığı ilə həyata keçirilir.

## Əlavə məlumat və müraciət üçün:

**Azərbaycan, Bakı**
8-ci mkr., İbrahimpaşa Dadaşov küç., 74 V, Azadlıq metrosunun yaxınlığı

**Tel:** (012) 563 09 09
(012) 563 20 20
**Mob:** (070) 892 07 07

**Azərbaycan, Gəncə**
Gəncə ş., Atatürk prospekti döngə 2, ev 9

**Tel:** (022) 256 26 37

www.azanadolu.edu.az
www.facebook.com/anadoluaz



# Azərbaycanda biznes təhsilinin inkişaf perspektivləri



**RUSLAN ATAKİŞİYEV,**
iqtisad üzrə fəlsəfə doktoru,
İqtisadi Araşdırmalar və
Tədris Mərkəzinin prezidenti

Uzun illərin təcrübəsi göstərir ki, elm və təhsil hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni yüksəlişində mühüm rol oynayır.

Müasir dövrdə təbii sərvətlər bolluğu dövlətin əsas göstəricisi sayılmır. Dünya Bankının apardığı araşdırmalar müəyyən etmişdir ki, ABŞ-ın milli sərvətinin 76 faizini insan kapitalı, 19 faizini istehsal, 5 faizini təbii resurslar təşkil edir. Avropa ölkələrində insan kapitalı 74, istehsal 24, təbii resurslar cəmi 2 faiz təşkil edir. Rusiyada isə insan kapitalı 50, istehsal 10, təbii sərvətlər 40 faiz səviyyəsindədir.

Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır.

"AZƏRBAYCAN-2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASInda indidən ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatı"na keçidin əsasının qoyulması, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilmişdir. Bu isə iqtisadi modelin formalaşdırılmasında müvafiq tələblər irəli sürməklə bərabər,



təhsil sisteminin də kökündən dəyişdirilməsini nəzərdə tutur.

Ölkədə təhsilin təşkili zamanı müasir bazar iqtisadiyyatının tələblərinin, ölkənin sosial-iqtisadi inkişafının prioritetlərinin, sahibkarlığın maraqlarının düzgün nəzərə alınmaması hələ də universitetlərin hazırladığı kadrların cəmiyyətin ehtiyaclarına cavab verməsi istiqamətində bir sıra çətinliklərin yaranması ilə nəticələnir.

Müasir dövrdə Azərbaycanda biznes təhsilinin təşkili prosesi başlıca olaraq aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

Birincisi – ali təhsilin bakalavr və magistr pillələri üzrə iqtisadiyyatın müxtəlif sahələrinə müvafiq kadr hazırlığının ənənəvi üsullarla həyata keçirilməsi. Bu, təhsilə cəlb olunan müdavimlərə sonda müvafiq diplomların verilməsi ilə nəticələnir;

İkincisi – ali təhsildə ikinci ixtisasın alınması üzrə biznes sahəsində mütəxəssis hazırlığının həyata keçirilməsi. Bunun tətbiqi çox zaman baza təhsili və digər istiqamətlər üzrə olmuş, lakin sonradan iqtisadiyyat sahəsində çalışan şəxslər üçün daha çox cəlbedicidir;

Üçüncüsü – biznesin müxtəlif sahələrini və peşələrini əhatə edən qısa və uzunmüddətli kadr hazırlığı üzrə treninqlərin keçirilməsi. Bu işlər həm ali təhsil ocaqları, həm də müxtəlif kurslar, tədris mərkəzləri tərəfindən həyata keçirilir. Bu sahədə beynəlxalq səviyyədə tanınan sertifikatlar əsasında tədrisin həyata keçirilməsi daha çox yayılmışdır. Qeyd edək ki, Azərbaycanda bu sferanın yeni inkişaf etməsi səbəbi ilə hələ də bu sahədə keyfiyyətli təhsilin verilməsində bir sıra problemlər qalmaqdadır. Amma belə treninqlər peşəkar mütəxəssislərin biliklərinin vaxtaşırı artırılması sahəsində ən yaxşı praktikalardan biridir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı başlıca inkişaf strategiyası kimi müəyyənləşdirilmişdir. Bu səbəbdən də iqtisadiyyatda dövlətin payı ilbəil azaldılaraq qeyri-dövlət sektorunun tərəqqisinə daha çox diqqət yetirilir. Xüsusən də sahibkarlığın inkişafı başlıca prioritet kimi təyin olunmuşdur. Ölkədə kadr hazırlığının həyata keçirilməsi zamanı da müasir dövrün sosial-iqtisadi inkişaf hədəflərinin nəzərə alınması ali təhsil ocaqları qarşısında başlıca vəzifə kimi dayanmaqdadır. Bu səbəbdən keçmiş Sovet dövründən fərqli olaraq, hazırda biznes təhsilinə abituriyentlərin marağı artaraq ixtisas seçimində sözügedən istiqamətlərə daha çox üstünlük verirlər.

Bunun əyani sübutu kimi aşağıdakı statistik məlumatlara nəzər salaq. Belə ki, dövlət və qeyri-dövlət ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin ixtisas qrupları və istiqamətlər üzrə bölgüsündə, cədvəl 1-in məlumatlarından da göründüyü kimi, ali təhsilin bakalavr pilləsində iqtisadiyyat və idarəetmə ixtisas qrupları üzrə qəbul olunan abituriyentlərin sayı 2000/2001-ci tədris ilində 4.890, 2009/2010-cu tədris ilində 5.885, 2012/2013-cü tədris ilində 6.691, 2013/2014-cü tədris ilində isə 7.373 nəfər olmuşdur. İllər üzrə müqayisəli təhlil aparan zaman görmək olar ki, 2013/2014-cü tədris ilində iqtisadiyyat və idarəetmə ixtisas qruplarına qəbul olunan abituriyentlərin sayı 2009/2010-cu tədris ilinə nisbətən 33,7, 2012/2013-cü tədris ilinə nisbətən isə 9,2 faiz artmışdır. Buradan da göründüyü kimi, biznes təhsili üzrə kadr hazırlığı sahəsində tutulan yerlərin sayı ilbəil artır.

Cədvəl 1

**Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin ixtisas qrupları və istiqamətlər üzrə bölgüsü (tədris ilinin əvvəlinə)**

| | 2000/2001 | 2008/2009 | 2009/2010 | 2012/2013 | 2013/2014 |
|---|---|---|---|---|---|
| **Ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin sayı:** | | | | | |
| **Bakalavriata – cəmi, nəfər** | **26 403** | **28 765** | **29 822** | **33 327** | **35 370** |
| o cümlədən: | | | | | |
| İqtisadiyyat və idarəetmə ixtisasları qrupu | – | – | 5 885 | 6 691 | 7 373 |
| İqtisadiyyat və idarəetmə | 4 890 | 6 372 | – | – | – |
| **magistraturaya – cəmi, nəfər** | **2 752** | **3 265** | **3 934** | **4 746** | **5 514** |
| o cümlədən: | | | | | |
| İxtisas qrupları üzrə | | | | | |
| İqtisadiyyat və idarəetmə ixtisasları qrupu | – | – | – | 1 628 | 2 017 |
| İqtisadiyyat və idarəetmə | 638 | 1 227 | 1 531 | – | – |

*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları*



Cədvəl 1-də ali təhsilin magistratura pilləsinin iqtisadiyyat və idarəetmə ixtisas qrupları üzrə qəbul olunan tələbələr üzrə göstəricilərə baxdığımız zaman görmək olar ki, burada magistrlərin sayı 2000/2001-ci tədris ilində 638, 2009/2010-cu tədris ilində 1.531, 2012/2013-cü tədris ilində 1.628, 2013/2014-cü tədris ilində isə 2.017 nəfər olmuşdur. İllər üzrə müqayisəli təhlil aparan zaman görmək olur ki, 2013/2014-cü tədris ilində iqtisadiyyat və idarəetmə ixtisas qruplarının magistratura pilləsinə qəbul olunan tələbələrin sayı 2009/2010-cu tədris ilinə nisbətən orta hesabla 3 dəfə, 2012/2013-cü tədris ilinə nisbətən isə 19,2% artmışdır. Qeyd edək ki, bu artımda universitetlər tərəfindən ali təhsilin magistratura pilləsində biznes idarəetməsi üzrə həyata keçirilən MBA proqramlarının da mühüm rolu vardır.

Cədvəl 2-nin məlumatları əsasında Azərbaycanda dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində ixtisas qrupları və istiqamətlər üzrə təhsil alan tələbələrin sayını təhlil edən zaman görmək olar ki, 2013/2014-cü tədris ilində iqtisadiyyat və idarəetmə üzrə oxuyanların sayı ümumi tələbə kontingentinin 21,94%-ni təşkil etmişdir.

Cədvəl 2-də illərə görə trendə baxdıqda bütün ali məktəblər üzrə iqtisadiyyat və idarəetmə istiqamətində oxuyan tələbələr 2000/2001-ci tədris ilində 23056, 2008/2009-cu tədris ilində 33 167, 2012/2013-cü tədris ilində 32 324 nəfər və 2013/2014-cü tədris ilində 34 001 nəfər təşkil etmişdir. Buradan da göründüyü kimi, iqtisadiyyat sahəsi üzə təhsil alanların sayı 2013/2014-cü tədris ilində 2000/2001-ci tədris ilinə nisbətən 32,2, 2008/2009-cu tədris ili ilə müqayisədə 2,45, 2012/2013-cü tədris ilinə nisbətən isə 4,93 faiz artmışdır. Ümumilikdə hər il bu sahədə təhsil alanların sayının ilbəil artması ölkəmizdə biznes münasibətlərinin inkişafı ilə yanaşı, bu ixtisas üzrə təhsil imkanlarının da artdığını göstərir.

Ölkəmizdə biznes təhsilinə marağın artması, iqtisadçı məzunlara əmək bazarında ehtiyacın genişlənməsi, o cümlədən sahibkarlıq subyektlərinin sayının çoxalması tələbə və magistrlərin sayında ilbəil yüksəlişi şərtləndriməklə bərabər, bu sahədə təhsil verən ali məktəblərin qarşısında mühüm məsuliyyətlərin də formalaşdığını göstərir.

Hazırda ölkəmizdə biznes təhsilinin həyta keçiilməsində dövlət və özəl ali məktəblər içərisində Azərbaycan Dövlət İqtisad Universiteti, ADA Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Xəzər Universiteti, Qərb Universiteti, Qafqaz Universiteti, Bakı Biznes Universiteti və Azərbaycan Universiteti daha çox fərqlənir.

ADA Universitetinin tərkibində ayrıca Biznes Məktəbi fəaliyyət göstərir. Yaxşı təcrübə kimi həmin məktəbin Məsləhət Şurasına Azərbaycanın öndə olan biznes strukturlarının vəzifəli şəxsləri daxil edilmişdir. Bu da biznes nümayəndələrinin tədrisin təşkilində birbaşa iştirakına imkan yaradır.

Azərbaycan Dövlət İqtisad Universitetində (ADİU) isə iqtisadiyyatın bütün sahələri üzrə tədris həyata keçirilir. Burada London Universitetinin London İqtisadiyyat Məktəbinin bakalavr dərəcə proqramının həyata keçirilməsini, İnnovativ Biznes İnkubatorunun təşkilini, biznes strukturlarında çalışanların tədris prosesinə cəlb olunmasını və s. göstərmək olar. ADİU-da İnkubator vasitəsilə universitet tələbələrinin startap layihələri qiymətləndirilərək onların biznesə başlamaları üçün də dəstək proqramı həyata keçirilir.

Qafqaz Universitetində isə biznes və sənaye ilə əməkdaşlığa kompleks yanaşılaraq bu istiqamətdə müasir dövrdə iş dünyasının

Cədvəl 2

## Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində ixtisas qrupları və istiqamətlər üzrə təhsil alan tələbələrin sayı (tədris ilinin əvvəlinə)

| | 2000/2001 | 2008/2009 | 2009/2010 | 2012/2013 | 2013/2014 |
|---|---|---|---|---|---|
| **Tələbələrin sayı – cəmi, nəfər** | **119 683** | **136 587** | **139 194** | **145 584** | **151 274** |
| o cümlədən: | | | | | |
| İxtisas qrupları üzrə: | | | | | |
| İqtisadiyyat və idarəetmə ixtisasları qrupu | – | – | 5 906 | 28 501 | 33 201 |
| İqtisadiyyat və idarəetmə | 23 056 | 33 167 | 28 031 | 3 823 | 800 |

*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları*




tələblərinə cavab verəcək şəkildə müxtəlif mərkəzlər yaradılmışdır. Həmin mərkəzlər vasitəsilə həm universitet əməkdaşları, həm də tələbələr biliklərini özəl sektorda reallaşdırmaq və artırmaq imkanı əldə edirlər. Bununla yanaşı, praktiki biliklərin artırılması məqsədilə laboratoriyalar, o cümlədən texnoparklar təşkil olunmuşdur.

Bütün bunlara baxmayaraq, ölkədə biznes təhsilinin inkişafı qarşısında hələ də bir sıra problemlər qalmaqdadır. Bunun üçün də beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqinin genişləndirilməsinə böyük ehtiyac var.

## Sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır

Qısası, beynəlxalq təcrübəyə nəzər salsaq, görmək olar ki, Amerikada sahibkarlar və müxtəlif şirkətlərin insan resursları departamentlərinin nümayəndələri mobil informasiya portalı vasitəsilə universiteti bitirməkdə olan tələbələrin və məzunların bacarıqları barəsində ətraflı məlumat əldə edərək onları öz şirkətlərinə cəlb etmək imkanı da qazanırlar.

Beynəlxalq sertifikatlar proqramı vasitəsilə İstanbul Universiteti həm Türkiyədə, həm də müxtəlif xarici ölkələrdə biznes strukturları üçün treninqlər təşkil edərək, onların vasitəsilə müəllim heyətinin işgüzarlığını artırır, məzunlarına davamlı dəstək göstərir və maliyyə vəsaiti cəlb edir.

Avropa universitetlərinin xarakterik xüsusiyyətlərindən biri isə onların nəzdində reklam və marketinq departamentlərinin fəaliyyət göstərməsidir. Bu şöbələrin əsas vəzifəsi təmsil etdikləri universitetlərin həm ölkə daxilində, həm də beynəlxalq arenada müsbət imicini formalaşdırmaq, tələbə axınını çoxaltmaq, ali məktəblərin mövcud bazara təqdim etdikləri məhsullar (tədqiqat işləri, proqramlar, müəllim heyəti və s.) haqqında cəmiyyəti məlumatlandıraraq müştəri cəlb etməkdən ibarətdir.

İngiltərədə karyera tərbiyə proqramları peşəkar işçilərlə tələbələr arasında həyata keçirilir. Proqram vasitəsilə peşəkarlar öz təcrübələrini, ekspertizalarını tələbələrlə paylaşmaqla onlara karyera ideyalarını inkişaf etdirməyə kömək edirlər.

Bu misalları xeyli artırmaq da olar. Sonda biznes təhsilinin inkişafı ilə bağlı bir neçə təklif irəli sürmək üçün İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi tərəfindən aparılmış tədqiqatdan irəli gələn bir neçə tövsiyəni aşağıda sadalayaq:

**1.** Universitetlərdə kadr hazırlığı işini şirkətlərlə əməkdaşlıq çərçivəsində birgə təşkil etmək; universitetlərin dekanlıqları, müvafiq şöbələri sahibkarlıq subyektləri və biznes assosiasiyaları ilə qarşılıqlı əlaqə qurmalıdır. Bunun üçün müştərək "İnsan resursları" proqramlarının təşkili daha məqsədəuyğundur. Bu istiqamətdə görüləcək işlər həm müəssisələr, həm də ali təhsil ocaqları və onların məzunları üçün böyük əhəmiyyət daşıyır. Belə ki, sahibkarlıq subyektləri kadr hazırlığı prosesində yaxından iştirak edərək aktiv tələbələri seçib işə götürəcəklər. Bu da müəssisənin yeni işçinin təkmilləşdirilməsi ilə bağlı xərclərinə qənaət olunmasına gətirib çıxaracaq. Universitetlər isə məzunlarının işlə təmin olunmasına nail olacaqlar;

**2.** Özəl sektorla elm və təhsil sferasının münasibətlərinin formalaşdırılması istiqamətində qanunvericilikdə müvafiq islahatlar aparmaq;

**3.** Universitetlərdə praktikanın təşkili zamanı sahibkarlıq subyektlərinin və tələbələrin rəylərini nəzərə almaq;

**4.** Universitet-sənaye əməkdaşlığını genişləndirmək. Bu istiqamətdə sənayenin müxtəlif sahələri üzrə müvafiq kafedraların yaradılması, həmçinin təcrübə bazalarının formalaşdırılması, ali məktəblərdə və elmi müəssisələrdə sənaye sahələrində çalışanlar üçün nəzəri-təlim mərkəzlərinin təşkil olunması sonda universitet-sənaye əməkdaşlığının genişlənməsinə, yeni ideyaların təcrübə məkanlarında daha çevik formada sınaqdan keçirilməsinə və tətbiqinin sürətlənməsinə, elm və təcrübənin sintezi üçün daha əlverişli mühitin yaranmasına gətirib çıxarar;

**5.** Biznes təhsili sahəsində ölkəmizdə qabaqcıl mövqedə olan universitetlərin ən yaxşı təcrübələrinin Bakı və regionlarda yerləşən iqtisadiyyat sahəsində təhsil verən ali təhsil ocaqları arasında yayılmasına çalışmaq.

Azərbaycanda biznes təhsilinin inkişafı davamlı olaraq diqqət mərkəzində saxlanılmalıdır. Çünki dünya ölkələri içərisində rəqabətədavamlı ölkə olmaq üçün rəqabətədavamlı sahibkarlıq subyektlərinə malik olmaq lazımdır. Bunun üçün isə biznes strukturlarında ixtisaslı və peşəkar kadrların olması ən ümdə məsələlərdən biridir.




# Əmək bazarında iş yox, işçi problemi var

Söhbət sarı rəngdən gedirsə, seçilən tonlar çox vacibdir. Sarı rəngin az miqdarda istifadəsi səmimi mühit yaradır. Parlaq limon sarısı gözü ən çox yoran rəngdir. Eyni zamanda sarı rəng metabolizmi sürətləndirir. İştahaçıcı rəng olduğundan mətbəx və restoranlarda istifadə edilə bilər. Ayrıca, sarı vərəqli qeyd dəftəri və kompüter ekranında sarı rəngli arxa fon beyni və gözləri yorduğu üçün məsləhət görülmür. Bu rəngə üstünlük verənlər sərbəstliyi sevən və dəyişikliklərdən zövq alan insanlardır.



### YAŞIL

Yaşıl gözlər üçün ən rahat və görmə qabiliyyətini artıran rəngdir. Bu rəngə xəstəxanalarda daha çox rast gəlinir. Səbəbi isə yaşıl rəngin sinir sisteminə sakitləşdirici təsir buraxması və xəstələri rahatlatmasıdır.

### AĞ VƏ QARA

Bu rənglər hər zaman ciddiyyətə diqqət çəkir. Qara – dizaynlarda ana rəng olaraq çox istifadə olunmur. Konsentrasiya üçün ən uyğun rəng olmasına baxmayaraq, iş mühitində geniş istifadə olunması məsləhət deyil. Geyimlərdə bu rəngə daha çox üstünlük verilir. Ağ rəng saflığı, təmizliyi ifadə edir. Buna görə tibb işçiləri steril olmaq üçün hər zaman ağ geyimdə olurlar. Ağ rəng işığı əks etdirir və mühiti sərin saxlayır. Ümumi olaraq isə mühitə sərinlik və canlılıq hissi verir. Məkanları olduğundan böyük, lakin soyuq göstərir və ətrafda boşluq duyğusu yaradır. Ağ fonda olan sahələrə rəngli mebellərlə canlılıq gətirə bilərsiniz.



### BƏNÖVŞƏYİ

Bu rəngdən istifadə etməklə siz otağa zənginlik, rifah və dərin bir məna qatmış olarsınız. Bənövşəyi zadəganlıq rəngi kimi tanınır. Dəbdəbəli həyatın, zənginlik və zərifliyin işarəsidir. Bəzi insanlar bənövşəyi rəngdən, dəbdəbənin göstərişi olduğundan, dekorasiyada istifadə etməyi sevirlər. Bənövşəyi rəng yaradıcılığın və sənətin rəngidir.

### QƏHVƏYİ

Qəhvəyi torpaq və taxta rəngidir. Bu rəng təbii, rahat və açıq bir atmosfer yaradır. Qəhvəyi rəng insanlarda güc və güvən hissi yaradır.

### ÇƏHRAYI

Çəhrayı rəngin sakitləşdirici təsiri vardır. Araşdırmalar göstərir ki, bu rəng insanları sakitləşdirir və qəlbləri yumşaldır. Bir həbsxanada qapı və pəncərə barmaqlıqları çəhrayı rəngə boyandığına görə məhbusların aqressiv davranışlarının azaldığı müşahidə edilmişdir. Çəhrayı rəngli bir otaqda insanın əsəbiləşməsi qeyri-mümkündür. Çəhrayının insanlar üzərində enerjini çəkən sakitləşdirici rolu var.


DARBELERE
DAYANIKLI
ANTİ
BAKTERİYEL
NEME
DAYANIKLI
BOYA VE
BAKIM
GEREKTİRMEZ
SUYA
DAYANIKLI
B1
YANMAZLIK
ADOKAPI®
AHŞAP KOMPOZİT KAPI
adokapi.com.tr

# Orta təbəqə ilə zəngin insanlar arasındakı 10 fərq



**DÜNYADAKI ƏN ZƏNGİN 85 ŞƏXSİN SƏRVƏTİNİN DÜNYA ƏHALİSİNİN YARISININ, YƏNİ YOXSUL İNSANLARIN ÜMUMİ SƏRVƏTİNƏ BƏRABƏR OLDUĞUNU BİLİRDİNİZMİ? SON MƏLUMATLARA GÖRƏ, ORTA TƏBƏQƏYƏ AİD İNSANLARIN SAYINDA AZALMA MÜŞAHİDƏ OLUNUR. ƏGƏR SİZ NƏ YOXSUL, NƏ DƏ ZƏNGİN DEYİLSİNİZSƏ, O ZAMAN QƏRAR VERMƏLİSİNİZ: GƏLƏCƏKDƏ ZƏNGİN, YOXSA YOXSUL OLMAQ İSTƏYİRSİNİZ? ZƏNGİN OLMAQ İSTƏYİRSİNİZSƏ, ZƏNGİNLƏR KİMİ DÜŞÜNMƏYƏ BAŞLAMALISINIZ. BELƏLİKLƏ, ORTA TƏBƏQƏ VƏ ZƏNGİN İNSANLAR ARASINDAKI 10 FƏRQƏ DİQQƏT YETİRƏK:**

## 1. Orta təbəqə rahatlığı, zənginlər narahatlığı seçir





*“İnvestisiya qoyarkən rahat olanlar nadir hallarda qazanırlar”.*

**Robert Arnott**

Təhlükəsiz işdə çalışmaq, o cümlədən başqası üçün çalışmaq rahatdır. Orta təbəqə rahatlığın xoşbəxtlik gətirdiyini düşünür, zənginlər isə narahat vəziyyətlərdə qeyri-adi şeylər olacağını bilirlər. Öz işini qurmaq riskdir və risklər gərginlik, narahatlıq yaradır, ancaq kiçik risklər qazandırır və böyük nəticələrə gətirib çıxarır. Əgər zəngin olmaq istəyirsinizsə, “rahatlıq bölgəsi”ndən çıxın. Zəngin olmaq üçün bir az da narahat olmağınız gərəkdir.



## 2. Orta təbəqə qazandığından çox, zənginlər qazandığından az xərcləyir



Adətən, zənginlər bahalı əşyalara üstünlük vermir, pullarını passivlərə xərcləmirlər. Onlar vəsaitlərini aktivlərə yatırır və qazandıqlarından az xərcləyirlər. Unutmayın, bir milyon dollar qazanır və ildə bir milyon dollar xərcləyirsinizsə, deməli, pulsuzsunuz.

## 3. Orta təbəqə şirkət nərdivanlarını çıxır, zənginlərin öz nərdivanları var



Orta təbəqə başqası üçün çalışmağa meyillidir. İşləri, karyeraları var. Zənginlər isə öz işlərinin sahibi olmağa çalışırlar. Orta təbəqə kimi şirkət nərdivanlarını çıxmırlar, çünki öz nərdivanları var. Zənginlər daha çox gəlir əldə etmək üçün daha çox insanın onlar üçün çalışmalı olduğunu bilirlər.



*"Dünyanın ən zəngin insanları şəbəkələr axtarar və qurarlar; geri qalan hər kəs iş axtarır".*

**Robert Kiyosaki**

## 4. Orta təbəqə hər kəslə dostdur, zənginlər isə dostlarını məntiqlə seçirlər



Zənginlər bilirlər ki, ətraflarında müvəffəqiyyət qazanmış insanlar olarsa, bu, onlara da təsir edəcək. Eyni zamanda ətraflarında işdə əli gətirməyənlərin olmasının da uğursuzluqlarına səbəb olacağını başa düşürlər. Gəliriniz ən yaxın üç yoldaşınızın gəlirinin ortalamasıdır. Daha çox pul qazanmaq istəyirsinizsə, sizdən daha çox pul qazananlarla yaxınlıq etməlisiniz.



*Hər zaman sizdən daha üstün insanlarla vaxt keçirməyə çalışın.*
*Zamanla siz də onlara bənzəməyə başlayacaqsınız".*

**Warren Buffett**

## 5. Orta təbəqə qazanmaq üçün, zənginlər öyrənmək üçün çalışırlar



Başqası daha çox pul təklif etdikdə orta təbəqə asanlıqla işini dəyişdirir. Zənginlər çalışmağın pulla bağlı olmadığını bilirlər. Varlanmaq istəyirsinizsə, bacarıqlarınızı və vərdişlərinizi dəyişdirməlisiniz. Misal üçün, satış işində çalışırsınızsa, satışla bağlı incəlikləri, bankda çalışırsınızsa, maliyyə işi ilə əlaqədar bütün detalları öyrənməlisiniz. Zəngin olmaq istəyənlər varlanmağa kömək edəcək bacarıqlara yiyələnməlidirlər. Unutmayın ki, varlıların çoxu yüksək maaşlar almaqla zəngin olmayıb.

# 6. Orta təbəqənin nələri, zənginlərinsə pulu var



*"Bir çoxları qazanmadıqları pulu xərcləyir, istəmədiklərini alır, xoşlamadıqları insanlara təsir edirlər".*

**Will Rogers**



Dəbdəbəli maşınlara və böyük evlərin sahiblərinə diqqət yetirin. Orta təbəqənin əksəriyyəti bunlar üçün pul xərcləyir. Onların yaşadıqları yerlərdə olsanız, bahalı avtomobillər və evlər görərsiniz. Zənginlər isə varlanmaq üçün pullarının istədikləri şeylərdən daha çox olmasının vacibliyini bilirlər. Nə isə almağa davam etsəniz, pulunuz tükənər. Dünyadakı bir çox zəngin onillər boyunca eyni evdə yaşamaqda davam edir və yeni evə ehtiyac duymur. Nələrdənsə imtina edin, diqqətinizi qazandığınız pulu yığmağa və investisiya etməyə yönəldin.

# 7. Orta təbəqə qənaətə, zənginlər qazanca köklənir



*"Ən böyük varlığınız qazanmaq bacarığınızdır. Ən böyük qaynağınız zamanınızdır".*

**Brian Tracy**



Qənaət əhəmiyyətlidir. İnvestisiya etmək isə daha da əhəmiyyətlidir, ancaq ikisi bir yerdə qazanc gətirir. Qənaət və investisiya zəruridir. Amma daha çox qazanmaq üçün bədxərclikdən də imtina etməlisiniz. Həqiqətən zəngin olmaq istəyirsinizsə, qənaət etməyə yox, qazanmaq bacarığınıza diqqət yetirin.

# 8. Orta təbəqə pul mövzusunda romantik, zənginlər isə məntiqlidir



*"Yalnız zəka ilə romantik intizamı bir araya gətirdiyinizdə yaxşı davranarsınız".*

**Warren Buffett**

Steve Siebold "How Rich People Think" adlı kitabında 30 il ərzində dünyadakı ən zəngin insanlardan aldığı 1 200-dən çox müsahibəyə yer verib. O, hesab edir ki, zənginlərlə orta təbəqə arasında yüzdən çox fərq var. Qənaətə gəldiyi ən əhəmiyyətli fərqlərdən biri də orta təbəqənin pula romantik gözlə, zənginlərin isə məntiqlə baxmasıdır. Romantik düşüncə ilə maliyyə qərarları vermək maliyyə durumunun pisləşməsinə səbəb olur.

Warren Buffett investisiyanın duyğularla yox, məntiqlə edilməsinin lazım olduğunu bildirir. Duyğular insanların baha alıb, ucuz satmasına, təhlükəli iş müqavilələrinin imzalanmasına səbəb olur. Varlanmaq istəyənlər duyğularını bir kənara qoyaraq məntiqlə hərəkət etməlidirlər.

# 9. Orta təbəqə potensialının kiçik olduğu, zənginlər isə böyük hədəflər haqda düşünürlər

*"Hədəflərinizi yüksək tutun və oraya çatana qədər də durmayın".*

**Bo Jackson**



Orta təbəqə asan əldə edilə bilən, etibarlı hədəflər müəyyən edir. Zənginlər isə qarşılarına çətin və ya ağlasığmaz hədəflər qoyur və məqsədlərinə çatacaqlarına inanırlar. Burada önəmli olan doğru düşünməkdir. Hədəfinizi müəyyənləşdirərkən qarşınıza daha böyük məqsədlər qoya biləcəyinizi düşünün.

# 10. Orta təbəqə çox işləməyə, zənginlər ling qüvvəsinə inanır



Yüksəlmək üçün çalışmaq lazımdır. Problem ondadır ki, təkbaşına çalışmaqla zəngin ola bilməzsiniz. Varlı olmaq və zənginliyi qoruyub saxlamaq üçün Ling qanunundan (bu nəzəriyyəyə görə, iqtisadiyyatda böhran varsa, investisiya qoyulmalı, investor yoxdursa, dövlət özü investor kimi çıxış etməlidir. Deməli, əgər iqtisadiyyata 1 mlrd. dollar investisiya qoyulursa, dolayısı ilə müəssisələr, hissələr, xidmətlər satın alınırsa və ya yeni sektor yaradılırsa, ayrı-ayrı şəxslərin və ya müəssisələrin hesablarına köçürülən bu məbləğin 80 faizi xərclər olaraq yenidən dövriyyəyə qayıdır. Dövriyyədən ikinci dəfə toplanan məbləğin 80 faizi təkrar dövriyyəyə qayıdır və beləliklə, dövriyyəyə buraxılan 1 mlrd. dövriyyədə 8 mlrd. kimi çıxış edir – **red.**) istifadə etmək lazımdır.

Ling qismində xarici resurslardan tutmuş investisiyaya qədər fərqli şəkillərdən istifadə edilə bilər. Varlanmaq istəyənlər zənginlər kimi düşünməli və hərəkət etməlidirlər.


www.irm.az
www.irm.ge
IRM
İSTANBUL REKLAM MARKET
AZƏRBAYCANDA
İSO SERTİFİKATI İLƏ İŞLƏYƏN
İLK REKLAM ŞİRKƏTİ!!!
Azərbaycan, Bakı
Ünvan: Xəzər rayonu, Qala qəsəbəsi, Yeni Ağamalı 19
Tel.: +994 12 511 96 40
+994 12 459 77 64
Mob.: +994 55 264 14 15
+994 55 264 14 75
+994 55 264 14 76
e-mail: info@irm.az
Gürcüstan, Tiflis
Ünvan: A.Tsereteli pro., Vani küç., 5
Tel.: + 995 32 224 44 43
e-mail: info@irm.ge
LİGHTBOXLAR
PROMOSYONLAR
SELİQARFİK ÇAP
PANO
HASARLAMA
MAŞIN ÜZƏRİ
ÇAP
REKLAM
STENDİ
QABARIQ
HƏRFLƏR
BİLBORD
ELEKTRONİK
PANOLAR
TABELALAR
MEQALAYT
büyük
düşünün
Cnc Kəsim / Lazer Kəsim / Döküm Hərflər / Dijital Baskı
BAZARSTORE
bakcell




# Azərbaycanda payız sərgi mövsümü

## Bazarda yeni fəaliyyət sahələrini fəth etmək vaxtıdır!

2015-ci ilin sonuna kimi beynəlxalq sərgi və konfransların təşkilatçıları - "Iteca Caspian" və "Caspian Event Organisers" ("CEO") şirkətləri 11 beynəlxalq sərgi keçirəcəklər. Bu mövsümün bütün sərgiləri öz məzmunlarına görə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunu əks etdirəcək. Payız sərgi təqviminə Azərbaycan beynəlxalq "Səhiyyə" ("BIHE"), "Stomatologiya" ("Stomatology Azerbaijan"), "Gözəllik və Estetik tibb" ("Beauty Azerbaijan"), "Təhsil" ("Education"), "Karyera" ("Career"), "İnşaat" ("BakuBuild"), "İstilik, havalandırma və kondisiyalaşdırma sistemləri" ("AquaTherm Baku"), "Mühafizə, Təhlükəsizlik və Xilasetmə vasitələri" ("CIPS Caspian"), "Ətraf mühit" ("CTE") və "Telekommunikasiya və informasiya texnologiyaları" ("BakuTel") sərgiləri daxildir. Keçirildikləri illər ərzində sərgilər Xəzər regionunda lider mövqeyi qazanmış və ixtisaslaşdıqları sahələr üzrə mütəxəssislərin ənənəvi görüş yerinə çevrilmişdir. 15 oktyabr tarixində "Fairmont Baku" hotelində təşkil olunacaq "Davamlı inkişaf və korporativ sosial məsuliyyət üzrə 1-ci Azərbaycan konfransı" ("Baku CSR Conference 2015") ölkə üçün yeni mövzuya toxunacaq. Bu konfrans davamlı inkişaf və korporativ sosial məsuliyyət üzrə yerli və xarici metodların mənimsənilməsinə imkan yaradan unikal məkandır. Debüt konfransın məqsədi ölkənin hazırkı vəziyyətinin kompleks şəkildə qiymətləndirilməsi, eləcə də sözügedən sahənin inkişaf etdirilməsi üçün dövlət, özəl və qeyri-hökumət təşkilatları arasında dialoq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsindən ibarətdir. "Caspian Event Organisers" ("CEO") şirkətinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən bu konfrans artıq biznes ictimaiyyətinin böyük marağına səbəb olmuşdur. Debüt konfransın 300 nəfərdən artıq nümayən-



dəni və təxminən 30 nəfər spikeri bir araya toplayacağı gözlənilir. "Baku CSR Conference" konfransının baş sponsoru SOCAR, gümüş sponsoru isə "Access Bank"dır. "EY" şirkəti konfransın konsaltinq-tərəfdaşı qismində çıxış edir.

Payız mövsümündə ilk növbədə "Iteca Caspian" şirkətinin təşkil etdiyi 21-ci Azərbaycan Beynəlxalq "Səhiyyə" ("BIHE - 2015"), 10-cu Yubiley Azərbaycan Beynəlxalq "Stomatologiya" ("Stomatology Azerbaijan - 2015") və 9-cu Azərbaycan Beynəlxalq "Gözəllik və Estetik tibb" ("Beauty Azerbaijan - 2015") sərgiləri öz qapılarını ziyarətçilərin üzünə açacaq. Bu sərgilər 18-20 oktyabr tarixində Bakı Ekspo Mərkəzində keçiriləcək. "BIHE" sərgisi artıq 20 ildən çoxdur ki, səhiyyə mütəxəssislərinin ənənəvi görüş yerinə, eləcə də tibbi məhsul və xidmət bazarında əldə edilmiş nailiyyətlərin nümayiş olunduğu məkana çevrilmişdir. Sərgi iştirakçılarının siyahısında artıq 15 ölkəni təmsil edən 100-dən çox şirkət yer alır. Bu il sərgidə Çexiya Respublikası öz milli stendi ilə çıxış edəcək. Sərgidə ilk dəfə olaraq Rusiyanın əczaçılıq şirkətləri Rusiya Federasiyası Sənaye və Ticarət Nazirliyinin dəstəyi ilə birgə stendlə çıxış edəcəklər. Beləliklə, bu il "BIHE" iştirakçılarının təxminən 60%-ni xarici şirkətlər təşkil edəcək. Sərgidə xarici istehsalçılarla yanaşı, dünyanın aparıcı istehsalçılarının tərəfdaşı olan tibbi avadanlıqların nəhəng yerli distribütorları da iştirak edəcək. Yerli distribütorlar arasında "ARASH Medical", "Besan", "Vitta", "Labservis" və digər şirkətlər yer alır.

Sərgi tibbi turizm sektorunu fəal şəkildə inkişaf etdirir və bu il sözügedən sektor çərçivəsində xaricdə müalicənin təşkili ilə məşğul olan 30-dan artıq klinika və şirkətin iştirakı planlaşdırılır. Bunların arasında Gürcüstan, İsrail, Latviya və Türkiyənin klinika, sanatoriya və müalicə mərkəzləri var. İlk dəfə olaraq Türkiyənin tibbi turizmlə məşğul olan şirkətləri sərgidə birgə milli stendlə çıxış edəcək. Sərgidə həmçinin xarici klinika, sanatoriya və istirahət evləri ilə yanaşı, insanları müalicə üçün xaricə göndərən turizm şirkətləri də iştirak edəcək. Bu il tibbi turizm sektoru Türkiyə Turizm Agentlikləri Assosiasiyası (TURSAB) tərəfindən dəstəklənir.

Bu il sərgi öz geniş işgüzar proqramı ilə fərqlənəcək, belə ki, sentyabr ayının 18-də Bakı Ekspo Mərkəzində "Aktual kardiologiya problemləri" mövzusuna həsr olunmuş konfrans keçiriləcək. Konfransın sponsoru Sloveniyanın "KRKA" əczaçılıq şirkətidir. Sentyabr ayının 19-da isə Bakı Ekspo Mərkəzində "Mamalıq, ginekologiya və neonatologiya sahəsində müasir diaqnostika və müalicə metodları" mövzusunda 9-cu elmi-praktiki konfrans təşkil olunacaq. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və "Ginekologiya və Perinatologiyanın İnkişafına Dəstək" İctimai Birliyinin dəstəyi ilə keçirilən bu konfransda mütəxəssislər ən yaxşı təcrübələrini öz həmkarları ilə bölüşə biləcəklər. Həmçinin builki yeniliklərdən biri də tibbi turizm sektoru çərçivəsində "B2B" formatlı korporativ görüşlərin təşkili olacaq.

"Stomatology Azerbaijan 2015" sərgisində ən son stomatoloji avadanlıqlar və birdəfəlik istifadə üçün nəzərdə tutulmuş materiallar, implantologiya və dişlərin ağardılması üzrə ən yeni texnologiyalar və ağız boşluğunun gigiyenası üçün vasitələr təqdim olunacaq. "Beauty Azerbaijan 2015" sərgisində Azərbaycan, Almaniya, Kanada, Çin, Rusiya, Türkiyə və digər ölkələri təmsil edən şirkətlərin iştirakı planlaşdırılır. Ənənəvi olaraq, sərginin bütün ziyarətçilərini yeni şirkətlər, yeni sahələrlə görüş, peşəkarlar və salonlar üçün maraqlı təkliflər gözləyir. Sözügedən sahə üzrə yeni məhsulları təkcə xarici şirkətlər deyil, eləcə də Azərbaycan üçün yeni olan kosmetoloji və ətriyyat məmulatlarını təqdim etmək məqsədilə sərgidən platforma kimi istifadə edən yerli distribütorlar da təqdim edəcək.

Hər 3 sərginin eyni platformada keçirilməsi təsadüfi deyil. Sərgilərin vahid informasiya və sərgi mühiti kimi unikal formatı praktiki tibb sahəsi üçün nəzərdə tutulmuş innovasiyalı məhsulların təşviq etdirilməsi istiqamətində (keyfiyyət baxı-










mından) yeni imkanlar yaratmaqla yanaşı, tibbi texnika və avadanlıqların, eləcə də dərman vasitələrinin aparıcı istehsalçılarını, habelə estetik tibb sahəsində çalışan peşəkarları, dövlət strukturlarını və işgüzar dairələrin nümayəndələrini özünə cəlb edir.

Daha sonra sərgi mövsümünü "Təhsil" və "Karyera" (9-11 oktyabr), Xəzər İnşaat Həftəsi: "BakuBuild", "AquaTherm Baku", "CIPS" (21-24 oktyabr) və "Xəzər: Ətraf mühit üçün texnologiyalar" adlı ətraf mühit sahəsi üzrə 6-cı Beynəlxalq "Ətraf mühit" ("CTE - 2015") (18-20 noyabr) sərgiləri davam etdirəcək. Ənənəvi olaraq sərgi mövsümünü Azərbaycan Beynəlxalq "Telekommunikasiya və informasiya texnologiyaları" ("BakuTel 2015") sərgi və konfransı (2-5 dekabr) yekunlaşdıracaq. Bu sərgi mövsümü bir sıra seminar, təqdimat və konfransların daxil olduğu aktiv işgüzar proqramı ilə fərqlənəcək.

Beləliklə, Azərbaycanın paytaxtı Bakı şəhərini yenidən dolğun ixtisaslaşmış sərgi və konfrans mövsümü gözləyir. Ölkədə sərgilərin keçirilməsi ümumilikdə, xüsusən də dünya iqtisadiyyatında böhranlı dövrün yaşandığı bir vaxtda, ölkə iqtisadiyyatının və ölkənin beynəlxalq bazardakı iştirakının ciddi göstəricisidir. Bütün dünyada böhranlı vəziyyətin mövcud olmasına baxmayaraq, sərgilər bu böhrandan çıxmağın səmərəli yollarından biri olaraq qalır. Böhran informasiyanı ilk əldən almağa, işgüzar əlaqələri şəxsən qurmağa və dəstəkləməyə, aktual təklif və məhsulları müqayisə edərək seçməyə təkan verir. Məhz ticarət-sənaye sərgilərində müvafiq sahənin peşəkarları üçün şirkətlərin qərar qəbul etmək səlahiyyətinə malik olan birinci şəxsləri etibarlı tərəfdaşlarla görüşmək, biznesdə yeni istiqamətlər tapmaq, eləcə də sənayedə baş verən yeniliklərlə tanış olmaq imkanı yaradır. Bütün sərgilər Azərbaycan Respublikasının dövlət strukturlarının rəsmi dəstəyi ilə keçirilir. Beynəlxalq ittifaqlar və ixtisaslaşmış assosiasiyaların dəstəyi ilə bir sıra layihələr həyata keçiriləcək. Hazırda 2015-ci il payız sərgi mövsümünün sponsorları arasında "Access Bank", "Eurodesign", "KRKA", "NB Group", "Qazax Sement Zavodu", "SOCAR" və digər müəssisələr yer alır. 2015-ci ildə keçirilən bütün sərgilərin rəsmi tərəfdaşları "SafeLife" (təhlükəsizlik üzrə rəsmi tərəfdaş), "Jumeirah Bilgah Beach Hotel" və "Qafqaz Point Hotel" hotelləri (rəsmi mehmanxanalar), eləcə də "Greenwich Travel Club" (rəsmi turoperator) şirkətləridir. Ziyarətçilərin sərgiyə girişi pulsuzdur. Sərgilər, habelə onların ziyarətçi və iştirakçılara təklif etdikləri xidmətlər barədə daha ətraflı məlumatlarla www.iteca.az və www.ceo.az, veb-saytlarında, eləcə də sərgilərin sosial şəbəkələrdəki rəsmi səhifələrində tanış ola bilərsiniz.

# AZƏRBAYCANDA BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSLAR

## 2015 PAYIZ-QIŞ

BIHE

21-ci Azərbaycan Beynəlxalq
**SƏHİYYƏ SƏRGİSİ**
**18-20 SENTYABR**
www.bihe.az

AZERBAIJAN STOMATOLOGY

10-cu Yubiley Azərbaycan Beynəlxalq
**STOMATOLOGİYA SƏRGİSİ**
**18-20 SENTYABR**
www.stomatology.az

Beauty AZERBAIJAN

9-cu Azərbaycan Beynəlxalq
**GÖZƏLLİK VƏ ESTETİK TİBB SƏRGİSİ**
**18-20 SENTYABR**
www.beauty.iteca.az

BakuBuild

21-ci Azərbaycan Beynəlxalq
**İNŞAAT SƏRGİSİ**
**21-24 OKTYABR**
www.bakubuild.az

aqua THERM BAKU

8-ci Beynəlxalq
**İSTİLİK, HAVALANDIRMA VƏ KONDİSİYALAŞDIRMA SİSTEMLƏRİ, SU TƏCHİZATI, SANİTARİYA, ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ TEXNOLOGİYALARI, ÜZGÜÇÜLÜK HOVUZU VƏ BƏRPA OLUNAN ENERJİ SƏRGİSİ**
**21-24 OKTYABR**
www.aquatherm.az

Cips ASPIAN

8-ci Xəzər Beynəlxalq
**MÜHAFİZƏ, TƏHLÜKƏSİZLİK VƏ XİLASETMƏ VASİTƏLƏRİ SƏRGİSİ**
**21-24 OKTYABR**
www.cips.az

Bakutel

21-ci Azərbaycan Beynəlxalq
**TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİ VƏ KONFRANSI**
**2-5 DEKABR**
www.bakutel.az

*Tarixlər dəyişdirilə bilər

TƏŞKİLATÇILAR

ITE Iteca Caspian

Tel.: +994 12 4041000; Faks: +994 12 4041001
E-mail: office@iteca.az

www.iteca.az

ufi Member



# Beynəlxalq Sərgilər

## "Vastra 2015" Beynəlxalq Tekstil və Geyim Sərgisi keçiriləcək

28-30 sentyabr 2015-ci il tarixlərində Hindistanın Japur şəhərində "Vastra 2015" Beynəlxalq Tekstil və Geyim Sərgisi keçiriləcək.
Azərbaycanda fəaliyyət göstərən sahibkarlar və işgüzar dairələr sərgidə iştiraka dəvət olunur.
Tədbir haqqında daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz:

**Web: www.vastratex.com**
Hindistanın Azərbaycan Respublikasındakı Səfirliyi:
Tel: (+994 12) 564 63 54, 564 63 44;
Faks: (+99412) 447 25 72;
Website: www.indianembassybaku.in
E-mail: com.baku@indianembassybaku.in

## 3-cü Beynəlxalq "Kənd təsərrüfatı, qida və qablaşdırma sənaye" sərgisi keçiriləcək

2015-ci ilin 14-16 oktyabr tarixlərində Tacikistan Respublikasının Sənaye-Ticarət Palatasının "Eksposentral" şirkəti ilə birgə Düşənbə şəhərində təşkil etdiyi 3-cü Beynəlxalq "Kənd təsərrüfatı, qida və qablaşdırma sənaye" sərgisi keçiriləcək.
Azərbaycanda fəaliyyət göstərən sahibkarlar və işgüzar dairələr sərgidə iştiraka dəvət olunur.
Tədbir haqqında daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı internet səhifəsinə baxa bilərsiniz:

**Web: www.tpp.tj**

## "Mediz Sankt-Peterburq" sərgisi keçiriləcək

2015-ci ilin 14-16 oktyabr tarixlərində Sankt-Peterburq şəhərində "Mediz Sankt-Peterburq" adlı sərgi keçiriləcək.
Azərbaycanda fəaliyyət göstərən sahibkarlar və işgüzar dairələr sərgidə iştiraka dəvət olunur.
Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz:
**Web: www.mediz-spb.ru**

## "13-cü Beynəlxalq Fermentləşdirilmiş Qida Sərgisi" və "Sous Sərgisi" keçiriləcək

2015-ci ilin 22-26 oktyabr tarixlərində Koreyanın Ceoncu şəhərində "13-cü Ceoncu Beynəlxalq Fermentləşdirilmiş Qida Sərgisi", 29 oktyabr-1 noyabr tarixlərində isə "Sous Sərgisi" keçiriləcək.
Azərbaycanda fəaliyyət göstərən sahibkarlar və işgüzar dairələr sərgidə iştiraka dəvət olunur.
Tədbirdə iştirak etmək istəyənlər daha ətraflı məlumatı aşağıda qeyd olunan ünvandan əldə edə bilərlər:

**Website: www.iffe.or.kr**

## Sankt-Peterburqda "Peterqida-2015" 24-cü Beynəlxalq Ərzaq Sərgisi keçiriləcək

18-20 noyabr 2015-ci il tarixlərində Sankt-Peterburq şəhərində "Peterqida-2015" 24-cü Beynəlxalq Ərzaq Sərgisi keçiriləcək.
Azərbaycanda fəaliyyət göstərən sahibkarlar və işgüzar dairələr tədbirdə iştiraka dəvət olunur.
Tədbir haqqında daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz:

**Web: www.exim.lv/peterfood-2015**



# Biznes təklifləri



**Xorvatiya şirkəti** Azərbaycan sahibkarlarını birgə əməkdaşlığa dəvət edir.
Şirkət mal-qara dərisinin Azərbaycandan ixrac edilməsində maraqlıdır.
Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz:

**Tel:** **+994 12 497 25 46**
**Fax:** **+994 12 497 23 82**
**E-mail:** **OfficeCroatiaBaku@mvep.hr**

- - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - -

**Xorvatiyanın "Majo-commerce" şirkəti** Azərbaycan sahibkarları ilə əməkdaşlıq yaratmaq istəyir. Şirkət tunellərin tikintisi, gəmiqayırmada istifadə edilən ventilyasiya borularının, sukeçirməz geyimlər, odadavamlı çantalar, müxtəlif növ tentlər, idman və səyahət çantaları üçün bir üzü plastik örtüklü parçalar və s. məhsullar istehsal edir.
Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz:

**Tel.: +385 1 383 66 55**
**E-mail: majo-commerce@xnet.hr**
**Web: http://majo-commerce.hr/en/**



**Tacikistan Respublikasının Elektroenerji Sektoru Layihələrin İdarəedilməsi Mərkəzi** "Ravşan yarımstansiyasının bərpası" layihəsinin həyata keçirilməsi üçün podratçı şirkətləri əməkdaşlığa dəvət edir.
Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz:

**Tel: +992372222556**
**Web: www.bargijotik.ti**
**Email: pmu_tj@mail.ru**



**Özbəkistanın "Uzmprommashimpeks" müəssisəsi** Azərbaycan təşkilat və müəssisələri ilə əməkdaşlıq etmək istəyir. Əməkdaşlığa maraq göstərən sahibkarlar və işgüzar dairələr aşağıdakı ünvana müraciət edə bilərlər:
Əlaqəli şəxs: Burşaneva A.

**Tel: +99871 2384710**
**E-mail: Aynur_upm@mail.ru**
**www.upm.uz**



**İraq–Asiya Ticarət və Sənaye Palatası** Azərbaycan şirkətlərini İraqın yenidənqurulmasında iştiraka dəvət edir. Tenderlər haqqında daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz:
Əlaqəli şəxs: Zafir Nadim

**Tel.: +964 750 211 90 67**
**Faks: +964780 380 01 01**
**E-mail: contractbids@iacci.besaba.com**



**Malay İş Adamları və Sənayeçiləri Assosiasiyasının əməkdaşlıq təklifi**

1998-ci ildən bəri Malayziya Respublikasında fəaliyyət göstərən, 15.000 üzvdən ibarət və 13 filialı mövcud olan Malay İş Adamları və Sənayeçiləri Assosiasiyasının (PERDASAMA) əsas məqsədi xarici və yerli iş adamları arasında əlaqələrin qurulması, onlara lazımi dəstəyin göstərilməsindən ibarətdir. Təşkilat xarici ölkələrdə mövcud sənaye, kənd təsərrüfatı və yeyinti məhsulları istehsalı üzrə ixtisaslaşmış şirkətlərin Malayziyada müvafiq əlaqələrin qurulmasına, iş adamları arasında biznes görüşlərinin təşkil edilməsinə və xarici ölkələrin məhsullarının yerli bazarda təşviqi və satışına lazımi köməklik və dəstək göstərir.
Qeyd olunmalıdır ki, Malayziya yeyinti və ərzaq məhsullarının böyük hissəsini xaricdən idxal edir. 2013-cü ilin göstəricilərinə görə, bu məhsulların 90%-ni (əsasən ət və ət məhsulları, süd və süd məhsulları, yumurta, meyvə və tərəvəz) xarici ölkələrdə istehsal olunan məhsullar təşkil edib.
Malay İş Adamları və Sənayeçiləri Assosiasiyası haqqında ətraflı məlumat əldə etmək istəyənlər aşağıdakı əlaqə vasitələrindən yararlana bilərlər:

Anar Qasımlı
Biznes və Məlumat Mərkəzinin direktoru

**Tel: (+99412) 598 01 47, 598 01 48 (*104)**
**Mob: (+99455) 227 03 48**
**agasimli@azpromo.az**



**Çin Respublikası**nın ağır yük maşını istehsalı sahəsində fəaliyyət göstərən "Bei Ben" Dövlət Şirkəti Azərbaycanda avtomobil satışı və təmiri üzrə fəaliyyət göstərən şirkətlərə əməkdaşlıq təklif edir.
Şirkət və onun istehsal etdiyi məhsullar haqqında ətraflı məlumat üçün aşağıdakı əlaqələndirici şəxsə müraciət edə bilərsiniz:

Zaur Qardaşov
Direktor

**T: (+99412) 598 01 47/8 (daxili 102)**
**E: zgardashov@azpromo.az**





# Azərbaycanın gəzməli-görməli yerləri:

# Şəki

*Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki Xan Sarayını dünyaya göstərmək bəs edərdi.*

Nazim Hikmət



Rəsul Rəhimov

ŞƏKİ RAYONU AZƏRBAYCANIN ƏN MARAQLI, ORİJİNAL VƏ GÖZƏL RAYONLARINDAN BİRİDİR. RAYONUN İNZİBATİ MƏRKƏZİ – AZƏRBAYCANIN ƏN QƏDİM ŞƏHƏRLƏRİNDƏN OLAN ŞƏKİ ŞƏHƏRİ RESPUBLİKANIN ŞİMAL-QƏRBİNDƏ, KİŞ ÇAYININ SOL SAHİLİNDƏ, DƏNİZ SƏVİYYƏSİNDƏN 700 METR YÜKSƏKLİKDƏ, PAYTAXT BAKI ŞƏHƏRİNDƏN 370 KM ARALIDA, BÖYÜK QAFQAZ SIRA DAĞLARININ CƏNUB ƏTƏKLƏRİNDƏ, MƏRKƏZİ REGİONLARDAN UZAQDA – TƏCRİD OLUNMUŞ BİR MƏKANDA YERLƏŞİR. ŞƏHƏRİ ƏHATƏ EDƏN TƏBİƏT, MEŞƏLƏRLƏ ÖRTÜLÜ DAĞLAR ÖZ GÖZƏLLİYİ İLƏ İNSANI VALEH EDİR. ŞƏRQDƏN QƏRBƏ AXAN QURCANAÇAY ŞƏHƏRİ İKİ HİSSƏYƏ, DAHA YÜKSƏKDƏ YERLƏŞƏN CƏNUB, DİGƏRİ İSƏ VADİDƏ YERLƏŞƏN ŞİMAL HİSSƏLƏRİNƏ BÖLÜR.



Məmməd Əliyev



Məmməd Əliyev



Belə hesab edirlər ki, Şəkinin əsası miladdan əvvəl I minillikdə qoyulmuşdur. Bu şəhərin 2500-2600 yaşı olduğu güman edilir. Şəhərin adı vaxtilə bu yerlərdə yaşamış saki qəbiləsinin adından alınmışdır. Qədim Şəki ticarət yolları qovşağında yerləşirdi. O, iri ticarət mərkəzi, ipəkçiliyin və sənətkarlığın yaxşı inkişaf etmiş olduğu bir yer idi. Əsrlər boyu buraya gələn səyyahlar ilk növbədə Şəkinin bazarlarına baş çəkirdilər. Məşhur Şəki bazarlarında şıdırğı alver gedirdi: taxıl, ipək, dulusçuluq məmulatı, döymə işi olan qablar və zərgərlik məmulatları satılırdı. Lakin Şəkini ən çox məşhurlaşdıran onun ipəyi idi. Avropa, Asiya, Yaxın və Orta Şərq ölkələrindən gəlmiş tacirlər yüngül, güləbətin işləməli, duvaq kimi şəffaf Şəki ipəyini dünyanın müxtəlif ölkələrinə aparırdılar. Böyük İpək yolunun bu ərazidən keçdiyi dövrdə buralarda necə canlanma yarandığını təsəvvür etmək olar. Heyrətamiz gözəlliyə malik Şəki xalçaları da çox məşhur idi.





# aramex

delivery unlimited

- Beynəlxalq poçt daşınmaları
- Ölkədaxili poçt daşınmaları
- Beynəlxalq yük daşınmaları
- Gömrük xidmətləri
- Logistika

ATİB üzvləri üçün
Türkiyəyə qapıdan
qapıya çatdırılma

**25 AZN**

497 37 05 (pbx)

www.aramex.com

**Azərbaycanın** ən qədim şəhərlərindən biri olan Şəkini, haqlı olaraq, respublikanın memarlıq qoruğu adlandırırlar. Milli memarlığın saray memarlıq ənənələri ilə həmahəngliyinin nadir nümunəsi olan Şəki Xan Sarayı (1762-ci il) dünyanın hər yerindən gələn turistlərdə xüsusi maraq doğurur. Məlumdur ki, sarayın tikintisi zamanı bir mismardan belə istifadə edilməmiş, şəbəkə adlandırılan rəngli şüşələr (milli mozaika) isə Venesiyadan gətirilmişdi.

Şəki rayonunda çoxlu maraqlı tarixi abidə var. Şəhərin şimalında bir zamanlar alınmaz qala olan "Gələrsən, görərsən" qalasının (XV-XVIII əsrlər) qalıqları durur. Ticarəti ilə tanınan Şəkidə xeyli sayda karvansara mövcud olub və onlardan ikisi – XVIII əsrdə tikilən Yuxarı və Aşağı karvansaralar bugünümüzə qədər gəlib çıxıb.





Rəsul Rəhimov









Fotolar: Məmməd Əliyev



Şəki ağızda əriyən paxlavası, pitisi (gil qabda öz suyunda bişmiş ət və tərəvəz), həmçinin sakinlərinin yumor hissi ilə də məşhurdur. Yeri gəlmişkən şəhərin mərkəzində çoxsaylı ailə dükanlarında hazırlanan və satılan məşhur Şəki halvasının dadına baxmaq mümkündür.







**Şəkidə** yalnız müasir hotellərdə yox, həm də hələ XVIII əsrdə Böyük İpək yolu üzərində gecələmə yeri kimi inşa edilmiş "Şəki-Karvansara" mehmanxanasında qalmaq olar. Muzey-mehmanxana xan sarayından sonra əhəmiyyətinə görə ikinci görməli yer kimi turistləri cəlb edir. Karvansara ağır darvazaları ilə əvvəlki formasını qoruyub saxlamışdır.



Franzfoto



# TƏDBİRLƏRİN PROFESSİONAL TƏŞKİLATÇISI 2015

ceo caspian event organisers

EDUCATION

9-cu AZƏRBAYCAN BEYNƏLXALQ TƏHSİL SƏRGİSİ

**9-11 OKTYABR**

**www.eduexpo.az**

Career AZERBAIJAN

9-cu AZƏRBAYCAN BEYNƏLXALQ KARYERA SƏRGİSİ

**9-11 OKTYABR**

**www.careerexpo.az**

BAKU CSR CONFERENCE

1-ci AZƏRBAYCAN DAYANIQLI İNKİŞAF VƏ KORPORATİV SOSİAL MƏSULİYYƏT ÜZRƏ KONFRANSI

**15 OKTYABR**

**www.csrconference.az**

CTE

"XƏZƏR: ƏTRAF MÜHİT ÜÇÜN TEXNOLOGİYALAR" 6-cı BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİ

**18-20 NOYABR**

**www.cte.az**

ufi Approved Event

Bakutel

21-ci AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİ VƏ KONFRANSI

**2-5 DEKABR**

**www.bakutel.az**

Təşkilatçı: tel.: +994 12 4474774; faks: +994 12 4478558; e-mail: office@ceo.az

**www.ceo.az**

# Türkiyə və Azərbaycan prezidentləri Şəkidə







# Yeni daxil olan üzvlər

## ATAK İnşaat LTD

Atak İnşaat LTD şirkəti inşaat sahəsində sözün əsl mənasında memarlıq ve mühəndislik xidməti verərək, müştəri məmnuniyyətini daim öndə tutur.

## Dentamed Estetik Stomatoloji Klinikası

DENTAMED klinikasi stomatologiya sahəsində geniş xidmətlər göstərir: terapiya, cərrahiyyə, implantoloqiya, protezləmə, ortodontiya, ortopediya, uşaq stomatologiyası, rentgen diaqnostika.

**www.dentamed.az**

## Dorce Prefabrik Yapı ve İnşaat A.Ş

“Dorçe Prefabrik Yapı ve İnşaat Sanayi Ticaret A.Ş.” 1982-ci ildə qurulan, dünya miqyaslı təcrübəsi ilə ən çətin iqlim şərtlərində, yüksək keyfiyyətdə mühəndislik, tədarük və inşaat xidmətlərini təqdim edən türk podratçı firmadır.

**www.dorce.com.tr**

## İmplant Art Dental Klinikası

İmplantArt Dental Klinikası 10 may 2015-ci ildə fəaliyyətə başlamışdır. Klinikanın fəaliyyət istiqaməti müasir stomatologiyanın bütün sahələrini əhatə edir.

**www.implantart.az**

## NORM MMC

İstehsal gücü gündə 5 min ton klinker, ildə isə 2 milyon ton sement təşkil edən Norm Sement Zavodu Cənubi Qafqazın ən böyük sement zavodudur.

**www.norm.az**

## SINO TOUR

Azərbaycanda macəra turizmi və fəal istirahət üçün müraciət edə biləcəyiniz şirkətdir.

**www.sinotour.az**

## “Ziraat Bank Azərbaycan” ASC

Geniş filial şəbəkəsi və xidmət çeşidi ilə sürətli və əlverişli şəkildə müştərilərinə xidmət göstərən bank 150 ildən artıq müddətdir ki, sektorda dəyişikliyin bayraqdarı və lideri mövqeyindədir.

## Azər-Türk Med

Azər-Türk Med Tibb Mərkəzi 2007-ci ilin sentyabr ayından etibarən fəaliyyət göstərir. İnsanları psixoloji, mənəvi və sosial çətinliklərlə üz-üzə qoyan sonsuzluq problemi Azər-Türk Med Tibb Mərkəzində öz həllini tapır.

**www.azer-turkmed.az**

## “Bulvar Otel Bakı”

Ağ Şəhər qəsəbəsində yerləşən “Bulvar Otel Bakı” 2015-ci ilin may ayında “Absheron Hotel Group”un Azərbaycanda istifadəyə verdiyi dördüncü hoteldir. Adını dənizkənarı parkdan götürmüş və Bakı buxtasında, şəhər mərkəzindən şərqdə yerləşən “Bulvar Otel” Azərbaycanın ən böyük konfrans hoteli olmaqla qonaqlara 818 otaq təklif edir.

**www.boulevardhotelbaku.com**

## EFE İnşaat

EFE İnşaat şirkəti 2010-cu ildən Azərbaycanda fəaliyyət göstərir.

Əsas inşaat layihələri bunlardır:

- PAŞA Həyat Sığorta şirkəti (binanın təmiri);
- Trump Tower (əlavə binaların inşaatı);
- Cahan Holding Redbul Ofisinin inşaatı;
- Cahan Holding Naxçıvan Gənclər Mərkəzinin inşaatı.

## ATİB-ə üzvlük nə verir:

- Yeni biznes əlaqələrinin formalaşdırıması
- Şirkətinizin daha yaxşı tanıdılması
- Ən son informasiyanın əldə edilməsi
- Hər iki ölkədə biznes etiketi və ənənələri ilə tanışlıq
- Müxtəlif layihələrin həyata keçirilməsində iştirak

## ATİB-in üzvlük şərtləri:

- ATIB-in Nizamnaməsinə əsasən üzv olacaq hüquqi və fiziki şəxsin və ya xarici şirkətin təmsilçiliyinin Azərbaycanda fəaliyyət göstərməsi.
- Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti və ATİBə üzvlük blankı (üzvlük blankı əlavə edilir).
- Birliyə illik üzvlük haqqı olaraq 1200 manat ödənilməsi. Ödəmə hissə-hissə də həyata keçirilə bilər.

# Ad günləri siyahısı

**OKTYABR**

| B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | 31 | |

**NOYABR**

| B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | | | | | | |

**DEKABR**

| B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | | | | |

**1** — **Erdal Bakır**
Bazarstore QTSC

**2** — **Roman Əmircanov**
Dəmirbank

**4** — **Sevinc Qəribova**
Denta Med Estetik Stomatoloji Klinika

**14** — **Kemal Aksezgin**
Agro Kap

**24** — **Oktay Vayic**
Network Global Logistics

**25** — **Tahir Can**
Ambiance Otel

**26** — **Fahrettin Can**
CAN-PA MMC

**27** — **Roman Kofler**
Holiday Inn Baku (Marine Plaza MMC)

**1** — **İlham Mehdiyev**
Implant ART

**4** — **Zaur İsmayılov**
Havas Media

**6** — **Azər Rəhimov**
AzəriDizayn-2003 MMC

**10** — **Rəfail Şirinov**
TAIS IKF

**15** — **Qafur Cəfərov**
Viola MMC (Avrasiya Klinikası)

**23** — **Aydın Makaş**
Turkuaz Machinery MMC

**19** — **Gülzar Əlyarbəyova**
KONSIS MMC

**Yusuf Faruk Ceyhan**
Medisis

**23** — **Vahid Mürsəliyev**
Azercell Telecom MMC

**Yusifova Arzu**
TAC MMC

**27** — **Cem Becel**
"Azərbaycan Koka Kola Bottlers Ltd." MMC



# Binanın enerji ilə təchiz edilməsinə sərf olunan xərcləri 30%-a qədər azaltmaq – bu bir başlanğıcdır.

Müəssisənin bütün səviyyələrində enerjiyə sərf edilən xərclərinin optimallaşdırma üzrə kompleksli həllər.

Enerjidən səmərəli istifadə edərək mürəkkəb bir müəssisəni idarə etmək heç də asan iş deyil. Bizim EcoStruxure enerji istehlakinin idarəetmə arxitekturamız bina sistemlərinin vahid IP-platformada ağıllı inteqrasiya yolu ilə bu məsələni həll etməyə imkan yaradır.

**Bütün müəssisə üzrə enerji qənaəti.**

Bu gün yalnız Schneider Electric şirkətinin EcoStruxure enerji istehlakının idarəetmə arxitekturası bütün müəssisədə ventilyasiya və isti-soyuq havalandırma, kontrol-buraxılış, video-təhlükəsizlik və işıqlandırma idarəetməsi kimi çox enerji sərf edən sistemləri birləşdirərək, enerji xərclərini 30%-a qədər azalda bilər.

Binanın enerji istehlakının 30% azaldılması bütün müəssisə üzrə EcoStruxure arxitekturası sayəsində əldə edilə bilən qənaətin yalnız bir hissəsidir.



## Enerji qənaətinin yolları haqqında ekspertlərin reylərini öyrənin!

**www.SEreply.com internet saytına daxil olun, 58531p şifrəsini daxil edin və EcoStruxure və Enerji istifadədəsinin məhsuldarlığının artırılması həlləri haqqında PULSUZ kataloq yükləyin.**

**Müştərilərə Dəstək Mərkəzi:**

**+99412 488 83 39**

EcoStruxure™

**Elektrik stansiyasından tutmuş fərdi evlərədək fəal enerji idarəetmə arxitekturası.**



### Məlumat təhlili mərkəzləri

Şkaflar, bir sıra dirəklər, server otağı, və bütövlüklə binasəviyyəsində enerji istehlakının idarəetməsi və mühəndis infrastrukturunun bütün komponentlərinin real vaxtda nəzarətini həyata keçirilir.



### Sənaye müəssisəsi

Açıq standart protokollar minimal fasilə, yüksək fayda və maksimal enerji səmərəliliyi ilə avtomatlaşdırılmış proseslərin kompleksli idarəetməsini həyata keçirmək imkanını verir.



### Binalar

Müəssisə üzrə təhlükəsizlik, elektrik təchizati, işıqlandırma, enerji paylanması, yanğından mühafizə, ventilyasiya və isti-soyuq havalandırma, IT və telekommunikasiya sistemlərinin arxitektura səviyyəsində inteqrasiyası işçi heyətin təlimi, istismar, texniki xidmət və enerji istehlakına sərf olunan xərcləri azalmaq imkan yaradır.




©2014 Schneider Electric, bütün hüquqlar qorunur. Schneider Electric və EcoStruxure ticarət nişanları Schneider Electric Industries SAS və ya onun yardımçı şirkətlərə məxsusdur. Bütün digər ticarət nişanları müvafiq sahiblərinə məxsusdur.
• 998-2758_az
Məlumat reklam kimi nəşr olunur.

Schneider Electric

# "Bakı 2015" ilk Avropa Oyunlarında Azərbaycanın uğurları

Möhtəşəmliyi ilə hələ uzun müddət yaddaşlarda qalacaq "Bakı 2015" ilk Avropa Oyunlarına evsahibliyi edən Azərbaycan qitənin idman tarixinə yeni bir səhifə yazmağı bacardı. Lakin Azərbaycan Oyunlarla əlaqədar yalnız mükəmməl təşkilatçılığı ilə yox, həm də idmanda qazandığı nailiyyətlərə görə fərqlənməyi bacardı.

**Medal cədvəlində fəxri yer**

Qürurla qeyd etmək lazımdır ki, ümumi nəticələrə görə Azərbaycan ölkələrin medal cədvəlində fəxrlə 2-ci yerdə qərarlaşdı.

Azərbaycan idmançıları Oyunlarda keçirilmiş bütün yarışlarda təmsil olunublar. "Bakı 2015"-də baş tutan yarışlarda ümumilikdə 291 azərbaycanlı idmançı çıxış etdi. Ölkəmizi təmsil edən atletlər 12 idman növündə medallara yiyələndilər. "Bakı 2015" ilk Avropa Oyunlarında Azərbaycan ümumilikdə 56 medal qazandı. Bunlardan 21-i qızıl, 15-i gümüş və 20-si bürüncdür.

## Medalların idman növlərinə görə sıralanması:

**Güləş:**
6 qızıl, 2 gümüş, 7 bürünc – 15 medal

**Boks:**
6 qızıl, 1 gümüş , 4 bürünc - 11 medal

**Karate:**
4 qızıl, 2 bürünc – 6 medal

**Taekvondo:**
3 qızıl, 1 gümüş, 1 bürünc – 5 medal

**İdman gimnastikası:**
1 qızıl, 2 gümüş, 2 bürünc - 5 medal

**Cüdo:**
1 qızıl, 2 gümüş, 1 bürünc – 4 medal

**Sambo:**
4 gümüş

**Avarçəkmə:**
1 gümüş

**Bədii gimnastika:**
1 gümüş

**Qılıncoynatma:**
1 gümüş, 1 bürünc

**Batut gimnastikası:**
1 bürünc

Triatlon:
1 bürünc

## Azərbaycanlı medalçıların siyahısı QIZIL MEDAL SAHİBLƏRİ:

Baku 2015
1st EUROPEAN GAMES

**Oleq Stepko** (İdman gimnastikası)
**Firdovsi Fərzəliyev** (Karate)
**Rafael Ağayev** (Karate)
**Ayxan Mamayev** (Karate)
**Pərviz Bağırov** (Boks)
**Ayxan Tağızadə** (Taekvondo)
**Elvin Mürsəliyev** (Güləş)
**Toğrul Əsgərov** (Güləş)
**Rəsul Çunayev** (Güləş)
**Xetaq Qazyumov** (Güləş)
**Mariya Stadnik** (Güləş)
**İrina Zaretska** (Karate)
**İlham Zəkiyev** (Cüdo)
**Milad Beiqi Harçeqani** (Taekvondo)
**Radik İsayev** (Taekvondo)
**Abdulqadir Abdullayev** (Boks)
**Albert Səlimov** (Boks)
**Teymur Məmmədov** (Boks)
**Kollazo Sotomayor** (Boks)
**Elvin Məmişzadə** (Boks)
**Anjela Doroqan** (Güləş)




*ATİB İdarə heyətinin üzvü "Azərbaycan Koka Kola Bottlers Ltd." MMC rəsmi tərəfdaş, ATİB üzvü "Bazarstore" QTSC isə Rəsmi dəstəkçi olub.*



# Endirim Proqramı

ATİB üzvlərinin məmnun qalması üçün əlindən gələni əsirgəmir. Daim üzvlərin sosial həyatda aktiv olması üçün vacib işlərə imza atan ATİB bu dəfə sizlərə endirim kartını təqdim edir.

Endirim kartının istifadəsində digər məqsəd üzvlərin bir-birindən daim faydalanmasını təmin etməkdir. Kartda ATİB üzvlərinin təklif etdiyi müxtəlif endirimlər təşkil olunub.

Endirim kartı üzvlərimizə müxtəlif məhsul və xidmətlərdən şəxsi və şirkət üzrə güzəştlər əldə etmək imkanı verir. Ümid edirik ki, bu proqram hər biriniz üçün əlverişli olacaq.

Üzvlük kartı əldə etmək və ya endirim təklif etmək üçün (+994 12) 449 88 82 nömrəsinə müraciət edə bilərsiniz.




## Professional xidmətlər

| | |
|---|---|
| "AzəriDizayn 2003" MMC | 20% |
| DİTİS Reklam MMC | 10% |
| Kantara MMC | 10-15% |
| KoçSistem MMC | 10-15% |
| L.B Audit MMC | 10-20% |
| HAVAS Media Group | 50% |
| Qafqaz Tikinti Materialları | 20% |
| Real Təmizlik MMC | 25% |
| Integrated Systems Solutions | 10-15% |
| RR Group Of Companies | 10-15% |
| ARAMEX - Türkiyəyə gedən məktublara 25 AZN endirim | |
| KONSIS | 25% |
| Alliance Assist | 30% |
| Edem Art Dizayn | 20% |
| ADOPEN | 10% |
| Implant Art Dental Klinika | 20% |
| Tiklon Tekstil - kişi geyimləri-25%, iş geyimləri-10% | |
| ZİVELLA | 25% |

## Səyahət, yerləşdirmə

| | |
|---|---|
| Days Hotel Baku - otaq-20, fitness, spa, hamam-15% | |
| Divan Express Hotel | 10% |
| Kantara MMC | 10% |
| SİNO Tour MMC (* korporativ-30%, şəxsi-20%) | 20-30%* |
| Zenit Tour | 10% |
| Park Inn (* otaq-10%, konfrans zalı-10%, restoran-10%) | 10%* |
| Garage Iskender | 15% |

## Təhsil

Anadolu Universiteti

# Kredit və Worldcardın rahat ödənişləri üçün kanallar

- İnternet Bankçılıq
- Yapı Kredi Mobil Bankçılıq
- Yapı Kredi ATM
- Worldcard Şəxsi Kabinet
- Yapi Kredi cash-in ATM
- E-Manat
- Azərpoçt
- Hesab.az
- MilliÖn


yapikredi.com.az
*0444
YapiKrediAz

YapıKredi Bank
Azərbaycan


*AR Mərkəzi Bankı tərəfindən verilmiş 243 saylı lisenziya

A STAR ALLIANCE MEMBER

WIDEN YOUR WORLD

TURKISH AIRLINES




# WE SPEAK YOUR LANGUAGE!

Turkish Airlines, which has been providing 24/7 communication support in English, French, Arabic and Russian at the international transit desks, will soon expand its service by including many more languages for making your trip easier.

## *AYNI DİLİ KONUŞUYORUZ.*

*Dış hatlar geçiş alanlarında bulunan transit bankolarında 7/24 İngilizce, Fransızca, Arapça ve Rusça hizmet veren Türk Hava Yolları, kısa bir süre içerisinde birçok dilde de sağlayacağı iletişim desteğiyle seyahatlerinizi daha da kolaylaştıracak.*



Turkey
Discover the potential